# Lehinə cəmi 4 deputat səs verib

Ermənistan parlamenti Qarabağla bağlı komissiya yaratmaqdan imtina edib



**Ermənistan Milli Məclisi Qarabağla bağlı daimi komissiya yaratmaqdan imtina edib.**

"Report" "Sputnik Armeniya"ya istinadən xəbər verir ki, məsələ qanunverici orqanın Dövlət-hüquq məsələləri komissiyasında müzakirə olunub.

Belə bir komissiyanın yaradılmasının lehinə cəmi 4 deputat səs verib. Beləliklə, qərar layihəsi qəbul edilməyib.

*Qeyd edək ki, bu təşəbbüslə müxalif "Hayastan" fraksiyası çıxış etmişdi.*

# Alqış Həsənoğlu yenidən "Yeni Azərbaycan" qəzetinin baş redaktoru təyin olunub



**Alqış Musayev (Həsənoğlu) yenidən "Yeni Azərbaycan" qəzetinin baş redaktoru təyin olunub.**

Bununla bağlı YAP İdarə Heyətinin dünən keçirilən iclasında qərar qəbul edilib.

Bundan əvvəl "Yeni Azərbaycan" qəzetinin baş redaktoru deputat Hikmət Babaoğlu idi.

*Qeyd edək ki, A. Həsənoğlu əvvəllər də uzun müddət qəzetin baş redaktoru olub.*







# Dörd türk general zatən Azərbaycanda idi

Onlarla bağlı qərar Türkiyənin Yüksək Hərbi Şurasında avqust ayında verilib

**Ötən ayın sonu Türkiyədə Yüksək Hərbi Şuranın toplantısında qardaş ölkənin Silahlı Qüvvələrini Bakıda təmsil edəcək generalların adları açıqlanıb. Hərbi Şuranın qərarına əsasən, Azərbaycanda Xidmət Qrupu Komandanlığına 4 general təyin edilib.**

Söhbət generallar - Bahtiyar Ersay, Abdullah Katırçı, Ender Güner və Zekeriyyə Yalçından gedir. Deyilənə görə, Bahtiyar Ersay Azərbaycanda Xidmət Qrupu Komandanlığına təyin edilib. General Abdullah Qatırçı da Azərbaycan Xidmət Qrupu Komandanlığının Birgə Mərkəz Komandanlığına təyin edilməklə Egey Ordu Komandanlığına təyinat alıb. General Ender Güner isə Komandanlığın qərargah rəisi təyin edilib. Bununla yanaşı Türkiyə Silahlı Qüvvələrinin Bakıdakı hərbi attaşesi də dəyişib. Yeni hərbi attaşe general Zekeriyyə Yalçın təyin olunub. Təyinatlılar arasında general Ersay xüsusilə diqqət çəkir. Məlumatlara görə, müharibə dövründə general tez-tez Azərbaycanda olub. Yeni təyinatlarla yanaşı, Azərbaycan-Türkiyə hərbi təlimlərinin intensivləşməsi, xüsusilə işğaldan azad edilmiş ərazilərdə ilk təlim və təlimin məhz Laçında keçirilməsi diqqəti çəkən məqamlardır. Məlumat üçün onu da qeyd edək ki, Xüsusi Komandanlıq Qrupu yeni qurum deyil. Azərbaycanda 1992-ci ildən fəaliyyət göstərir, lakin bu günə qədər aşağı rütbəli zabitlərlə təmsil olunub.

(səh.4)


❒ № 164 (5445), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 11 sentyabr 2021-ci il (şənbə)




# Prezident İlham Əliyev Əziz Səncəri fəxri diplomla təltif edib

**Prezident İlham Əliyev Əziz Səncərin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının beynəlxalq humanitar əlaqələrinin inkişafında xidmətlərinə görə Əziz Səncər "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

# Rüstəm Muradov Kosobokovu təqdim edib

Zakir Həsənov Rusiya sülhməramlılarının yeni komandanı ilə görüşüb





**Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı qüvvələrinin komandanı vəzifəsini başa vuran general-leytenant Rüstəm Muradov ilə görüşüb.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, sonra general-leytenant R.Muradov Rusiya sülhməramlı kontingentinin komandanı vəzifəsinə yeni təyin olunan general-mayor Mixail Kosobokovu Müdafiə nazirinə təqdim edib. Görüşdə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindəki son vəziyyət müzakirə edilib.

# Qarabağa düşən kölgə

## Kremlin əli hələ də düşmənin çiynindədir

**"Biz Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin bağlanması və Dağlıq Qarabağın statusu ilə bağlı müzakirələri diqqətlə izləyirik".**

Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib. XİN sözçüsü təəssüflə qeyd edib ki, Qarabağ nizamlanmasında tərəflər arasında siyasi məsələlərlə bağlı prinsipial fikir ayrılıqları qalır.





*Ona görə də Moskva indiki mərhələdə üçtərəfli bəyanatların bütün bəndlərinin ciddi şəkildə icrasını prioritet hesab edir:* "Biz Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin bağlanması və Dağlıq Qarabağın statusu ilə bağlı müzakirələri diqqətlə izləyirik". Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib. XİN sözçüsü təəssüflə qeyd edib ki, Qarabağ nizamlanmasında tərəflər arasında siyasi məsələlərlə bağlı prinsipial fikir ayrılıqları qalır. Ona görə də Moskva indiki mərhələdə üçtərəfli bəyanatların bütün bəndlərinin ciddi şəkildə icrasını prioritet hesab edir...

(səh.3)

# Parlamentdə YAP deputatları üzrə əlaqələndirici seçilib

**Milli Məclisin deputatı Hikmət Babaoğlu Parlamentdə YAP deputatları üzrə əlaqələndirici vəzifəsinə seçilib.**

Bununla bağlı YAP İdarə Heyətinin dünən keçirilən iclasında qərar qəbul edilib.

# Sayt rəhbəri Ramiz Göyüşovdan iki min manat rüşvət alarkən yaxalanıb

**"Azadinfo.az" saytının rəhbəri Mahir Xəttab rüşvət alarkən yaxalanıb.**



Bu barədə Trend-ə Mahir Xəttabın vəkili Mehman Muradlı deyib.

Vəkil bildirib ki, Mahir Xəttabla görüşüb və faktla bağlı maraqlanıb. Sayt rəhbəri etiraf edib ki, Yeni Azərbaycan Partiyasının Binəqədi rayon şöbəsinin keçmiş sədri Ramiz Göyüşovdan 2 min manat alarkən Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi əməkdaşları tərəfindən saxlanılıb. Hazırda Mahir Xəttab barəsində həbs qətimkan tədbirinin seçilməsi məqsədilə Binəqədi rayon Məhkəməsinə aparılır.

Vəkil bildirib ki, M.Xəttab barəsində həbs qətimkan tədbiri seçiləcəyi təqdirdə məhkəmənin qərarından apellyasiya şikayəti verəcək.





# "Daha Səndən sonra su içmək olmur"

## Akif Əhmədgil: "Biz kişilər beləyik, qadının qədrini onu itirəndən sonra bilirik"

**- Biz bir az gec bildik xəstəliyə tutulduğunu. Yemək yeyəndə deyirdi, udqunanda əziyyət çəkir. Mən də deyirdim, yəqin boğazın ağrıyır, isti çay içmisən, boğazını yandırıb, udqunanda ağrıdır. Məsuliyyətsiz yanaşdıq... Mən məsuliyyətsizlik etdim.**

(səh.6)

# Heç də sevinməyin!

## "Dirijor çubuğu" Dövlət İmtahan Komissiyasının əlindədir



Qəbul imtahanlarında nəticələr heç də pis olmadı. I ixtisas qrupunda göstəricilər 150-200 arası bal toplayanlar ali məktəbə vəsiqə qazandılarsa da, ənənəvi olaraq III ixtisas qrupunda isə nəticələr gözlənildiyindən yüksək oldu. Hətta abituriyentlər arasında 600-dən çox bal toplayanlar da var. Niyə "gözlənildiyindən yüksək" deyirik, bu da məlumdur.

(səh.3)

# Ramiz Göyüşov YAP-dan xaric edildi



**Yeni Azərbaycan Partiyasının (YAP) Binəqədi rayon təşkilatının keçmiş sədri, sosial şəbəkələrdə intim videosu yayılan Ramiz Göyüşov partiya sıralarından xaric edilib.**

Bu barədə qərar partiyanın İdarə Heyətinin dünən keçirilən iclasında verilib.

*Qeyd edək ki, Ramiz Göyüşovun YAP Binəqədi rayon təşkilatının sədri kimi səlahiyyətlərinə iyunun 30-da keçirilmiş hesabat konfransında xitam verilmişdi.*

# 2 508 yeni yoluxma faktı qeydə alınıb

4 076 nəfər müalicə olunaraq sağalıb, 37 nəfər vəfat edib

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2 508 yeni yoluxma faktı qeydə alınıb, 4 076 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 37 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 455 044 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 401 300 nəfər müalicə olunaraq sağalıb, 6 031 nəfər vəfat edib, aktiv xəstə sayı 47 713 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 14 672, ötən müddət ərzində isə ümumilikdə 4 623 245 test aparılıb.*



# “Kəlbəcər" neftdaşıyan tankeri istismara verildi

## Azərbaycan Prezidenti mərasimində iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı gəmiqayırma zavodunda ”Kəlbəcər” neftdaşıyan tankerin istismara verilməsi mərasimində iştirak edib.**

Bu neftdaşıyan tankerin tikintisinə ”Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı gəmiqayırma zavodunda 2 il əvvəl başlanılıb. Prezident İlham Əliyevin təşəbbüsü ilə tanker ”Kəlbəcər” adlandırılıb.

Qeyd edək ki, Prezident İlham Əliyev bir müddət əvvəl işğaldan azad edilən Kəlbəcərdə üçrəngli Azərbaycan bayrağını dalğalandırdı. İndi isə üçrəngli Azərbaycan bayrağı altında beynəlxalq sularda üzəcək ”Kəlbəcər” neft tankerinin istismara verilməsi mərasimində iştirak edib. Bunun çox böyük rəmzi mənası var.

**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.**

Dünyada pandemiyanın davam etməsi və iqtisadi-maliyyə böhranının yaratdığı problemlər fonunda Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının bütün sahələrinin inkişafı tam təmin olunur. Bu gün Azərbaycan strateji əhəmiyyətə malik məhsulları artıq özü istehsal edir. Bakı gəmiqayırma zavodunda gəmilərin istehsalı, o cümlədən ”Kəlbəcər” neftdaşıyan tankerinin inşa olunaraq istismara verilməsi bunun əyani təzahürüdür. Şübhəsiz ki, bu cür mühüm əhəmiyyətə malik istehsalın ölkəmizdə təmin olunması iqtisadi qüdrətimizi və Azərbaycanda icra olunan böyük sosial-iqtisadi infrastruktur layihələrinin ardıcıl şəkildə davam etməsini nümayiş etdirməklə gəmiçiliyin fəaliyyətinin şaxələndirilməsi ilə bağlı görülən işlərin həcmini aydın şəkildə göstərir.

**Dövlətimizin başçısı tankerin istifadəyə verilməsini bildirən rəmzi lenti kəsdi.**

“Kəlbəcər” neftdaşıyan tankerinin inşası, eyni zamanda, son illərdə yeni gəmilərin tikintisi və donanmaların yenilənməsi istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərin tərkib hissəsidir. Gəmiçiliyin Strateji İnkişaf Planına uyğun olaraq son illərdə 18 gəmi istismara verilib. Bu da ölkəmizin Xəzərdə aparıcı mövqeyinin qorunub saxlanılmasında, Azərbaycan ərazisindən artan tranzit yükdaşımalarına yaranan tələbatın ödənilməsində və dənizdə neft-qaz layihələrinin uğurla icrasında mühüm rol oynayır.

Uzunluğu 141 metr, eni 16.9 metr olan ”Kəlbəcər” tankerinin daimi heyəti 15 nəfərdən ibarətdir. Dedveyti - yükgötürmə qabiliyyəti 7,800 ton olan tankerdə dünyanın aparıcı şirkətlərinin avadanlıqları quraşdırılıb. Tankerin texniki göstəriciləri, xüsusilə suya oturumu digərləri ilə müqayisədə, maksimum yük götürməklə Xəzər hövzəsində nisbətən dayaz limanlara daxil olmağa və Xəzərdən kənara yük daşımasına imkan yaradır.

Yeni tanker Bakı gəmiqayırma zavodunun 2019-cu ildə təhvil verdiyi və hazırda Qara dəniz-Aralıq dənizi hövzələrində üzən ”Laçın” tankeri ilə eyni tiplidir. Bu tip 4 tanker sifariş verilib ki, hazırda yerli mütəxəssislər tərəfindən ikisinin tikintisi davam etdirilir. Ümumilikdə, zavoda 10 yeni gəminin tikintisi ilə bağlı sifariş verilib ki, onların da artıq altısının, o cümlədən 1 yedək, 3 sərnişin, 1 Ro-Pax tipli gəmi-bərənin və 1 tankerin tikintisi başa çatdırılaraq istismara verilib. Hazırda daha 2 neft tankeri ilə yanaşı, Ro-Pax tipli bir gəmi-bərənin inşası davam etdirilir. Gəmilərin tikintisi əsasən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin mənfəəti hesabına maliyyələşir. Bu da yerli gəmi tikintisi sənayesinin inkişafına töhfə verir.

Hazırda Qara dəniz və Aralıq dənizi hövzələrində Azərbaycan bayrağı altında 8 quru yük gəmisi və 3 tanker olmaqla, 11 gəmi istismar olunur. Heyətləri yalnız yerli mütəxəssislərdən ibarət olan bu gəmilər tanınmış dövlət-mədəniyyət xadimlərimizin, rayon və şəhərlərimizin adlarını daşıyır. Bu ilin sonunadək ”Prezident Heydər Əliyev”, ”Kəlbəcər” və ”Şuşa” tankerlərinin də Xəzərdən kənarda, o cümlədən Baltik və Şimal dənizlərinə çıxışı təmin olunacaq.

# "Dövlətimiz tərəfindən lazımi tədbirlər görülür"

## Yaqub Zurufçunun həyat yoldaşı Prezidentə və Birinci vitse-prezidentə təşəkkür edib



**“Yaqub Zurufçuya göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürümü bildirirəm”.**

Bunu “Report”a açıqlamasında Əməkdar artistin həyat yoldaşı Aynur Zurufçu deyib.

O bildirib ki, hazırda “Yeni Klinika” Tibb Mərkəzinin reanimasiya şöbəsində müalicə olunan müğənni bütün dərmanlarla təmin olunur, lazımi prosedurlar həyata keçirilir: “Heç bir dərmana, ya da əlavə bir köməyə ehtiyacımız yoxdur. Dövlətimiz tərəfindən lazımi bütün tədbirlər görülür. Az öncə Yaqub bəyin həkimi ilə danışmışam. Məni yanına buraxmırlar. Ancaq həkimlər deyir ki, əllərindən gələn bütün imkanlardan istifadə edirlər”.

*Qeyd edək ki, Əməkdar artist Yaqub Zurufçu bir neçə gün əvvəl koronavirusa yoluxub və ”Yeni Klinika”nın reanimasiya şöbəsinə yerləşdirilib. Müğənni süni nəfəs aparatına qoşulub. Həkimlər Y.Zurufçunun vəziyyətini ağır qiymətləndirirlər.*

# Müzakirə aparıldı

## Media sahəsində Azərbaycan-Türkiyə əlaqələri güclənir



**Türkiyə Radio və Televiziya Üst Qurumunun (RTÜK) geniş nümayəndə heyəti Azərbaycanda səfərdədir.**

Beynəlxalq TURAZ Akademiyası Konqresi çərçivəsində Bakıda səfərdə olan RTÜK-ün rəhbəri Ebubəkr Şahin və Üst Qurumun digər üzvləri sentyabrın 10-da Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov və Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarovla görüşüblər.

”Şərq ” xəbər verir ki, görüşdə İsmət Səttarov iki qardaş ölkə arasında Birgə Media Platformasının fəaliyyətinin gücləndirilməsi, media sahəsində bilik və təcrübə mübadiləsinin daha da intensivləşdirilməsi və digər qarşılıqlı maraq kəsb edən məsələlərdən danışıb.

O, Türkiyənin rəqəmsal media sahəsində biliklərinin paylaşılmasının, müxtəlif media təmsilçiləri ilə tərəfdaşlığın qurulmasının əhəmiyyətini vurğulayıb. Şura sədri beynəlxalq arenada rast gəlinən dezinformasiyalara qarşı birgə mübarizə aparılması və dünya ictimaiyyətinin düzgün məlumatlandırılmasının vacibliyini qeyd edib.

MEDİA-nın İcraçı direktoru Əhməd İsmayılov media və kommunikasiya sahəsində Azərbaycan-Türkiyə ikitərəfli əlaqələrinin və əməkdaşlığının daha da gücləndirilməsindən, strateji media ortaqlığının yaradılmasından bəhs edib. Qardaş ölkənin Vətən müharibəsi zamanı göstərdiyi mənəvi dəstəyin xüsusi əhəmiyyətə malik olduğunu bildirən Ə.İsmayılov Medianın İnkişafı Agentliyinin fəaliyyəti barədə qonaqları məlumatlandırıb.

Ebubəkr Şahin öz növbəsində ikitərəfli əlaqələrin gücləndirilməsində və əməkdaşlıqda maraqlı olduqlarını bildirib.

# “YAP dəyişiklik istəyirsə, özündən başlamalıdır"



Natiq Cəfərli: “Parlamentdə 70-ə yaxın deputatı var, amma fraksiyası və qanunvericilik təşəbbüsü yoxdur”

**Dünən hakim Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib və mühüm qərarlar alınıb. İclasda partiyanın rayon təşkilatlarına yeni sədrlərin təyin olunması məsələsi müzakirə edilib və Bakı üzrə 9 rayon təşkilatının sədrləri vəzifəsindən azad olunub.**

Binəqədi rayon təşkilatının keçmiş sədri Ramiz Göyüşov isə partiya sıralarından xaric edilib. R.Göyüşovun YAP Binəqədi rayon təşkilatının sədri kimi səlahiyyətlərinə iyunun 30-da keçirilmiş hesabat konfransında xitam verilmişdi. Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının tərkibinə kooptasiya yolu ilə yeni üzvlər daxil edilib. İclasda, həmçinin Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının, Gənclər Birliyinin, Mərkəzi Aparatının və yerli təşkilatlarının əsasnamələri təsdiq edilib. Bununla yanaşı, YAP üzvlərinin qeydiyyatı və hesabatlılıq sisteminin yaradılması üçün maliyyə vəsaitinin ayrılmasına razılıq verilib. Hacıbala Abutalıbov, Şəmsəddin Xanbabayev və Tağı Əhmədov YAP Veteranlar Şurasına üzv qəbul olunub. Tanınmış jurnalist Alqış Musayev (Həsənoğlu) isə yenidən ”Yeni Azərbaycan” qəzetinin baş redaktoru təyin olunub. Qeyd edək ki, A.Həsənoğlu əvvəllər də uzun müddət qəzetin baş redaktoru olub. Bundan əvvəl ”Yeni Azərbaycan” qəzetinin baş redaktoru deputat Hikmət Babaoğlu idi. H.Babaoğlu Parlamentdə YAP deputatları üzrə əlaqələndirici vəzifəsinə seçilib.

**YAP-dakı dəyişikliklə bağlı ”Şərq”ə danışan REAL sədrinin müavini Natiq Cəfərli deyib ki, Yeni Azərbaycan Partiyasının öz imicini və fəaliyyətini dəyişməsinə ehtiyac var. Partiya təmsilçisinin sözlərinə görə, nə qədər qəribə səslənsə də, Yeni Azərbaycan Partiyası hakimiyyət partiyası yox, hakimiyyətdə təmsilçiləri olan bir partiyadır:** ”Bu, tamam fərqli anlayışlardır. Hakim partiya kimi fəaliyyət göstərmək üçün YAP-ın özünün fraksiyası olmalıdır. Eyni zamanda qanunvericilik təşəbbüsləri olmalıdır. Parlamentdə 70-ə yaxın deputatı var, amma fraksiyası və qanunvericilik təşəbbüsü yoxdur. Bu gün Milli Məclisdə qəbul olunan qanunların 96 faizi Prezident Administrasiyası tərəfindən təqdim edilir. Bəs YAP-ın təşəbbüsləri, qanunlarla bağlı təklifləri niyə görmürük? Yeni Azərbaycan Partiyasının üzvləri son zamanlar hansısa ideoloji tezislərlə, təklif və təşəbbüslərlə deyil, videogörüntülərlə, neqativ hadisələrlə gündəmə gəlirlər. Bu da çox yanlışdır. Əlbəttə, biz də bəyan edirik ki, iqtidar ya müxalifət, fərqi yoxdur, şəxsi həyatla bağlı məsələni gündəmə gətirmək yolverilməzdir. İnsanlar belə məsələlərə daha həssas yanaşmalıdırlar. Amma faktiki olaraq gündəmə ardıcıl belə arzuolunmaz hadisələrlə gəlməyin özü yaxşı tendensiya deyil”.

**N.Cəfərliyə görə, YAP siyasi partiya sisteminin yaxşılaşmasına, rəqabətli mühitin genişlənməsinə çalışmalıdır:** ”Əgər bunu həqiqətən istəyirsə, o zaman dəyişikliyə özündən başlamalıdır. Bu gün hansısa gənc YAP-a üzv olmağı özünə karyera qurmaq metodu kimi istifadə etməməlidir. Yeni Azərbaycan Partiyası bizim siyasi rəqibimizdir. Onlara uğurlar arzu edirəm. Ümid edirəm ki, YAP ölkədəki keyfiyyətli siyasi diskusun yaranmasına töhfə verəcək”.

İsmayıl Qocayev

# Bakıda anlaşma memorandumu imzalandı

## Türk dünyasında növbəti illərdə iqtisadi əlaqələr daha da dərinləşəcək



**Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (TDƏŞ) üzv ölkələrin iqtisadiyyat nazirlərinin 10-cu görüşündə türkdilli ölkələr arasında müxtəlif iqtisadi zonalar sahəsində məlumat və təcrübə mübadiləsi haqqında anlaşma memorandumu imzalanıb.**

İmzalanmadan əvvəl çıxış edən Türkiyənin Ticarət naziri Mehmet Muş deyib ki, türkdilli ölkələrin əhalisinin sayı 160 milyon nəfər, illik iqtisadiyyatının ümumi dəyəri isə 1,1 trilyon ABŞ dollarıdır. Türkiyəli nazir Azərbaycanla imzalanmış və bu ildən qüvvəyə minmiş preferensial ticarət sazişi barədə də danışıb və oxşar sənədin Özbəkistanla da imzalana biləcəyini deyib.

**Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramov ”Şərq”ə açıqlamasında diqqətə çatdırıb ki, sənəd ölkələr arasında iqtisadi-ticari əlaqələrin genişlənməsinə xidmət etməklə yanaşı, qarşılıqlı investisiya qoyuluşlarının artırılmasını da təşviq edəcək. Millət vəkili vurğulayıb ki, türkdilli ölkələrin inkişafı üçün vacib olan Türk İnvestisiya Fondu da üzv ölkələrə sərmayə qoyuluşlarının artmasına imkan verəcək:** ”Strateji əməkdaşlıq xəttini son illər daha da gücləndirən türkdilli dövlətlər iqtisadi münasibətlərin dərinləşməsi üçün yeni imkanları müəyyənləşdirirlər. Azərbaycan və Mərkəzi Asiyada yerləşən türkdilli dövlətlər MDB çərçivəsində qarşılıqlı ticari rejimi artıq formalaşdırıblar. Türkiyə ilə Azərbaycan arasında imzalanan preferensial ticarət sazişi bu ilin martında qüvvəyə minib. Türkiyə Özbəkistan ilə oxşar sazişi imzalamaq mərhələsindədir. Bu isə ondan xəbər verir ki, türk dünyasında növbəti illərdə iqtisadi əlaqələr daha da dərinləşəcək. Azərbaycanın Vətən müharibəsindəki zəfərindən sonra regiondakı düzən də dəyişib. Artıq reallığa çevrilməkdə olan Zəngəzur dəhlizi 1.1 trilyon dollardan çox ümumi daxili məhsulu olan türkdilli ölkələri iqtisadi baxımdan birləşdirməklə yanaşı, regionun strateji əhəmiyyətini daha da artıracaq. Dəhliz türkdilli ölkələr arasında ticarət dövriyyəsinin və eləcə də beynəlxalq yükdaşımaların həcminin artırılması üçün yeni imkanlar açacaq”.

Aynurə

# Türkiyə ilə hərbi ittifaqımızı gücləndirməliyik

## “Dörd ildən sonra sülhməramlıların Qarabağdan çıxarılmasına kimsə əngəl törədə bilməyəcək”



**”Rusiyanın Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş sülhməramlı kontingentinin keçmiş komandiri Rüstəm Muradov anadan olduğu Dağıstana qayıdandan sonra Mahaçqala şəhərində ”Vətən Qəhrəmanları Keşikçiləri” təşkilatının üzvləri ilə keçirilən görüşdə deyib ki, Rusiya sülhməramlı kontingentinin Qarabağda qalma müddəti uzadılacaq:**

”Sülhməramlılar Azərbaycan, Ermənistan və Rusiya tərəfinin imzaladığı razılaşmaya əsasən, münaqişənin bitməsindən sonra 5 il ərzində Qarabağda olacaq. Bu müddətdən sonra onların Qarabağda qalma müddətinin uzadılması barədə qərar veriləcək”.

Bu sözləri siyasi analitik Turab Rzayev deyib.

Görünür, düşmən yenə dinc dayanmaq istəmir. Əlbəttə, sülhməramlıların Qarabağda qalma müddətinin uzadılması həm Moskvaya, həm də İrəvana sərf edir. Amma rəsmi Bakı buna imkan verməməlidir. Elə isə proseslər necə inkişaf etməlidir? *”Şərq” olaraq bu barədə ”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlunun fikirlərini öyrəndik:*

**- Muradovun sözügedən fikirlərini necə qiymətləndirirsiniz?**

- Onun belə bir açıqlama vermək ixtiyarı yoxdur. Ola bilsin, general bağlı qapılar arxasında rəhbərliyindən bu barədə nəsə eşidib və onları deyir. Amma istənilən halda, Azərbaycan razı olmasa, sülhməramlılar dörd ildən sonra torpaqlarımızı tərk edəcəklər. Sülhməramlıların yeni komandanının Bakıdan əvvəl İrəvana getməsi özü təxribatdır və neqativ mesajdır.

**- Rusiya sülhməramlıların qalma müddətini uzatmaq üçün nələr edə bilər?**

- Sülhməramlılara ehtiyac olduğunu göstərməyin bir yolu var - provokasiyalar törətmək. Biz də bunu əvvəlcədən görməli və lazımi addımları atmalıyıq.

Fikrimcə, Rusiya müharibədə bizə mane ola bilmədiyi kimi, dörd ildən sonra sülhməramlıların Qarabağdan çıxarılmasına da kimsə əngəl törədə bilməyəcək.

**- Buna imkan verməmək üçün Azərbaycan nə etməlidir?**

- Siyasi gücümüzü artırmalı, Türkiyə ilə hərbi ittifaqımızı möhkəmləndirməliyik. Həmçinin öz növbəmizdə Kremlə mesajlar verməliyik. Elə etməliyik ki, dörd ilədək Qarabağda ciddi köçlər baş tutsun. Bu, oradakı ermənilərə və ruslara psixoloji təzyiq olacaq.

Kənan Novruzov



# Qarabağa düşən kölgə

## Kremlin əli hələ də düşmənin çiynindədir

İsmayıl Qocayev

**"Biz Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin bağlanması və Dağlıq Qarabağın statusu ilə bağlı müzakirələri diqqətlə izləyirik". Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib. XİN sözçüsü təəssüflə qeyd edib ki, Qarabağ nizamlanmasında tərəflər arasında siyasi məsələlərlə bağlı prinsipial fikir ayrılıqları qalır. Ona görə də Moskva indiki mərhələdə üçtərəfli bəyanatların bütün bəndlərinin ciddi şəkildə icrasını prioritet hesab edir:**

"Bura ilk növbədə atəşkəs rejiminə riayət olunması, kompleks humanitar problemlərin həlli, regionda iqtisadi və nəqliyyat kommunikasiyalarının açılması aiddir. Ümid edirik, məlum addımlar Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması üçün şərait yaradacaq və yekun siyasi nizamlanmaya çıxaracaq".

Zaxarova qeyd edib ki, Rusiya sülhməramlılarının nəzarət etdiyi zonada hansısa əhəmiyyətli pozuntular qeydə alınmayıb: "Bunu həm Bakı, həm də İrəvanda təsdiq edirlər. Biz öz tərəfimizdən Qarabağda atəşkəs rejimini etibarlı təmin edən Rusiya sülhməramlı kontingentinin fəaliyyəti haqqında müntəzəm olaraq məlumat veririk. Azərbaycan-Ermənistan sərhədində vəziyyətlə bağlı qiymətləndirmələrimizi bölüşürük. Regionda iqtisadi və nəqliyyat əlaqələrinin açılması ilə bağlı işlər barədə məlumatlandırırıq. Ümumilikdə, Bakı və İrəvan arasında münasibətlərin sağlamlaşdırılmasına istiqamətlənən vasitəçilik səyləri barədə ictimaiyyətə və KİV-ə açıqlamalar verilir".

Rusiya XİN təmsilçisi üçtərəfli bəyanatının bir illiyinə dair geniş hesabat hazırlanacağını da vurğulayıb: "Hesabatda üçtərəfli bəyanatın icrası ilə bağlı kompleks qiymətləndirmə yer alacaq".

Mariya Zaxarovanın bəyanatını şərh edən siyasi şərhçilər hesab edirlər ki, Rusiya XİN başçısı Sergey Lavrov kimi qurumun sözçüsü Zaxarovanın da əksər açıqlaması ikibaşlı, ziddiyyətli olur. Hər ikisinin də fikirlərinin müəyyən hissəsi normal sayılsa da, mütləq neqativ tərəfləri də olur. Sülhdən, əməkdaşlıqdan, üçtərəfli bəyanatın vazkeçilməz sənəd olmasından danışan Zaxarova "status" məsələsini də gündəmə gətirməyi unutmayıb. Maraqlıdır ki, XİN təmsilçisi Moskvanın prosesi diqqətlə izlədiyini desə də, "statusla" bağlı müzakirələrin kimlərin arasında, hansı formada getdiyinə dair heç nə söyləməyib.

**Milli Strateji Tədqiqatlar Mərkəzinin rəhbəri, politoloq Natiq Miri "Şərq"ə açıqlamasında deyib ki, Rusiya rəsmilərinin hər açıqlamasında ikili standart və bariz riyakarlıq aydın görünür. Analitikə görə, Moskva mütəmadi olaraq Qarabağın "status" məsələsinin müzakirə predmeti olduğunu gündəmə gətirir:** "Kreml bununla Azərbaycana mesaj verir ki, Rusiya üçtərəfli sazişin şərtlərinə dair öhdəliyinin fərqində olsa da, bölgənin "status" söhbətini gözardı etmək fikrində deyil. Demək istəyirlər ki, Qarabağ problemi rəsmi Bakının nəzərində bitmiş sayılsa da, Moskva üçün davam etməkdədir. Bu, Rusiyanın birbaşa təsir mexanizmidir. Xatırlayırsızsa, bir müddət əvvəl Rusiya Prezidenti Vladimir Putin belə bir cümlə işlətmişdi ki, "Dağlıq Qarabağın status" məsələsi müəyyən olunmayana kimi bölgədə gərginlik və status-kvo davam edəcək. Kreml rəhbəri bunu vurğulamaqla ATƏT-in Minsk qrupunun fəaliyyətinin zəruri olduğuna da diqqət çəkir. Doğrudur, Rusiya regionda özünə hansısa alternativ güc, rəqib istəmir. ABŞ və Fransanın bölgədəki proseslərə müdaxiləsi Moskvanın planlarını poza bilər. Minsk qrupu və "status" məsələsini davamlı vurğulamaqda məqsəd birbaşa rəsmi Bakıya təzyiq göstərməkdir. Heç nəyə məhəl qoymadan prosesləri qabaqlamalıyıq. Azərbaycan tərəfi gedişatı özü müəyyənləşdirməlidir".



*"Səhnə arxasında ciddi mübarizə gedir. Bakı-Moskva arasında gərginlik hiss olunmaqdadır"*

**N.Mirinin fikrincə, Gorus-Qafan yolunun bağlanılması, Laçında Türkiyə-Azərbaycan qoşunlarının birgə hərbi təlimləri kimi addımlarla qətiyyətli mövqeyimizi ortaya qoymalıyıq:** "Ermənistan və onun havadarları rəsmi Bakının yaratdığı proseslərin arxasınca sürünməlidir. Səhnə arxasında ciddi mübarizə gedir. Bakı-Moskva arasındakı gərginlik hiss olunmaqdadır. Ermənistan bu vəziyyətdən öz xeyrinə istifadə edərək hiyləgər siyasət yeridir. Azərbaycan və Türkiyəni Rusiya ilə üz-üzə qoymağa çalışır. Diktə edən tərəf Azərbaycan olmalıdır, çünki qalib ölkə bizik".



# "Taliban"ın ilk hədəfi regionun müsəlman ölkələri olacaq

## Əlində 85 milyardlıq silahı olan gücün qarşısına heç bir dövlət çıxa bilməz

Aynurə Pənahqızı

**Əfqanıstanda yaşanan hadisələr və bu ölkə ətrafında aparılan oyunlar istər-istəməz bəşəriyyətdə yeni suallar doğurmaqdadır. İndi də bütün dünya "Taliban"ın Əfqanıstanı hara aparacağını düşünür.**

Təbii ki, şəriət qanunları ilə idarə olunacaq Əmirlik yaradacağını bildirən "Taliban"ın üsul-idarəsinin əfqan cəmiyyətinə hansı "sürprizlər" vəd edəcəyini təsəvvürə gətirmək çətin deyil. Demək olar ki, bir çox ölkələr "Taliban"ın necə davranacağından və hansı davranışı sərgiləyəcəyindən ehtiyatlanır. Taliblər tərəfindən böyük təhdidlərə məruz qala biləcəyinə ehtiyatla yanaşan ölkələrdən biri də təbii ki, Rusiyadır. Çünki "Taliban"ın verdiyi vədlərə baxmayaraq, radikal islam cərəyanının Rusiyanın cənub-şərq qurşağında yerləşən Mərkəzi Asiyaya sirayət etməyəcəyinə, daha doğrusu, ixrac edilməyəcəyinə heç kim zəmanət verə bilməz. Belə halda Mərkəzi Asiyada qanlı-qadalı qarşıdurmaların qızışması və bu odalovun tezliklə Rusiyaya keçəcəyi şübhə doğurmur. Bu isə böyük qurbanlar və resurslar hesabına, güc-bəla ilə radikal islam cərəyanını cilovlamış Moskva üçün ciddi təhlükədir. Məhz bu səbəbdən Kreml "Taliban" hökumətini tanımağa və onunla əlaqələr qurmağa hələ tələsmir. Bir sözlə, Rusiya gözləmə mövqeyindədir. Maraqlıdır, əgər "Taliban" həqiqətən Mərkəzi Asiyaya müdaxilə edərsə, o zaman Rusiya necə davranış sərgiləyəcək?

> Əziz Əlibəyli: "Rusiya üçün əsas qorxulu senari KTMT üzvü olan Tacikistanla bağlıdır"

**Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli "Şərq"ə açıqlamasında deyib ki, "Taliban"ın əlində olan 85 milyardlıq silahla Mərkəzi Asiyada heç bir dövlət faktiki olaraq, onun qarşısına çıxa bilməz.** Politoloq qeyd edib ki, "Taliban"ın ilk hədəfi regionun müsəlman ölkələri olacaq: "Bildiyimiz kimi, "Taliban"ın hazırda başı öz daxili siyasi məsələlərinə qarışıb. Onlar tam olaraq ölkədə hakimiyyəti təmin etməlidirlər. "Taliban" çalışır ki, birbaşa müsəlman əhaliyə təsir göstərsinlər və onların dini hisslərini istismar eləsinlər. Ardınca isə Rusiyanı hədəf alsınlar".

**Ə.Əlibəyli əlavə edib ki, Rusiya üçün əsas qorxulu senari KTMT üzvü olan Tacikistanla bağlıdır:** "Mərkəzi Asiya dedikdə, məhz Tacikistanın başı üzərində qara buludlar dayanır. Fikrimcə, burada din ixracı baş verəcək. Düşünmürəm ki, hələlik, hər hansı silahlı müdaxilə olsun. Əgər Talibanla Tacikistan arasında silahlı münaqişə olarsa, o zaman bunun qarşısını nə Rusiya, nə də ki, Tacikistan ala bilməyəcək. Çünki Talibanın qarşısını almaq imkansızdır və sırf orduların döyüşə biləcəyi potensiallar bir deyil. Talibanlar kifayət qədər peşəkar və güclüdülər. Əllərində olan silahlar Rusiyaya da çox ciddi şəkildə zərbə vurmaq iqtidarındadır. Bu halda Rusiya dənizlərdə olan raketlər vasitəsilə və s. digər raketlərlə Talibana atəş aça bilər. Bunun özü də Rusiya üçün çox pis senaridi. Əslində indidən onu proqnozlaşdırmaq çətindir. Ancaq mümkünsüz də deyil".

# Mina təmizlənməsinə 400 min avro...

## Fransa Azərbaycanla yanan körpüləri bərpa etmək istəyir



Cümşüd Nuriyev: "Məndə olan məlumata görə, Azərbaycanda çalışan həmin fransız şirkətlərinin nümayəndələri Makrona narazılıq ünvanlayıblar"

**Fransa işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi üçün Azərbaycana 400 min avro ayırmaq niyyətindədir. Bunu Fransanın Azərbaycandakı səfiri Zakari Qros öz tviter səhifəsində yazıb. O qeyd edib ki, beynəlxalq əməkdaşlığa ehtiyac duyulan başqa bir sahə məcburi köçkünlərin öz torpaqlarına qayıda bilmələri üçün ərazilərin minalardan təmizlənməsidir:**

"Qarabağda minalardan təmizlənməni tələb edən ərazilər çox böyükdür. Buna görə rəsmi olaraq ANAMA-ya bu məlumat verməkdən məmnunam. Fransa ərazilərin minalardan təmizlənməsi üçün Azərbaycana 400 000 avro ayırmaq niyyətindədir".

**Siyasi elmlər namizədi, politoloq Cümşüd Nuriyev "Şərq"ə açıqlamasında bildirb ki, əslində Fransa bu addımı ilə Azərbaycanla korlanmış münasibətlərini yenidən bərpa etməyə çalışır.** Politoloq qeyd edib ki, Azərbaycan tərəfdaş ölkə kimi Fransa üçün çox vacibdir: "Bilirsiniz ki, Fransa şirkətlərinə Azərbaycanda investisiya qoymaq üçün bir çox imkanlar yaradılıb. Bu günləri də Fransanın çoxsaylı firmaları burda mövcuddur. Məndə olan məlumata görə, Azərbaycanda çalışan həmin fransız şirkətlərinin nümayəndələri Makrona narazılıq ünvanlayıblar. Onlar qeyd ediblər ki, Azərbaycan dövləti onlar üçün hər cür şərait yaratsa da, Fransanın yürütdüyü siyasət onları kifayət qədər çətinliyə salır. Qeyd edim ki, Fransada UNESCO xətti ilə Heydər Əliyev Fondu kifayət qədər təqdirəlayiq işlər həyata keçirib. Bizim hörmətli, Mehriban xanım hətta, "Versal" sarayının bərpasında və digər məsələlərdə böyük işlər görüb. Yəni Azərbaycan kifayət qədər Fransaya humanitar yardım göstərib. Ona görə də, fikrimcə, Fransanın belə bir niyyəti artıq xoşməramlıdır. Çünki Fransa da artıq erməni yalanlarını təbliğ etməkdən yorulub. Hesab edirəm ki, Fransanın atacağı bu addım xoşməramlı olduğuna görə Azərbaycan-Fransa münasibətləri də yeni müstəviyə keçə bilər".

**Aynurə Pənahqızı**

Mələhət Rzayeva

**Qəbul imtahanlarında nəticələr heç də pis olmadı. I ixtisas qrupunda göstəricilər 150-200 arası bal toplayanlar ali məktəbə vəsiqə qazandılarsa da, ənənəvi olaraq III ixtisas qrupunda isə nəticələr gözlənildiyindən yüksək oldu. Hətta abituriyentlər arasında 600-dən çox bal toplayanlar da var. Niyə "gözlənildiyindən yüksək" deyirik, bu da məlumdur.**



# Heç də sevinməyin!

## "Dirijor çubuğu" Dövlət İmtahan Komissiyasının əlindədir

Məktəblərin pandemiya səbəbindən qapanmasını, dərslərin onlayn qaydada davam etməsini təhsil ekspertləri şagirdlər üçün dezavantaj hesab edirdi. Şagirdlər repetitorların ümidinə qalmışdı, lakin pandemiya səbəbindən repetitorlar da ehtiyatlı davranır, hər uşağı "evə almırdılar" . Amma mənzərə fərqli oldu. Kütləvi fərdi hazırlıqlar yüksək nəticələrə gətirib çıxardı. Təhsil eksperti Kamran Əsədov sosial şəbəkədə paylaşım edərək yazıb ki, Azərbaycan təhsili, Azərbaycan məktəbi repetitor və hazırlıq kursları qarşısında məhv olub, ölüb: "Bu gün həlledici rol repetitor və hazırlıq kurslarına məxsusdur. Bu, dəhşətli bir tendensiyadır. Mütləq şəkildə qəbul imtahanları sadələşdirilməlidir. Ən yaxşı halda, qəbul imtahanında yalnız 10 və 11-ci sinif dərsliklərindən istifadə olunmalıdır ki, şagirdlər az kitab oxuyub özləri fərdi qaydada hazırlaşsın. Yazıq abituriyentlər 6, 7 fəndən hazırlığa gedir, pul ödəyir, vaxt itirir. Bəs orta məktəb nə edir? Ölkə kölgə təhsilindən xilas olmalıdır. Məktəb şagirdlər üçün hazırda vaxt itkisindən başqa bir şey deyil".

Repetitorların gücünü orta məktəblərə transfer etmək mümkün deyilmi? Niyə şagird repetitor yanına gedir və nümunəvi şəkildə hazırlıq keçir, hər bir şəraitə malik məktəbdə isə bu mümkün olmur?

**Təhsil eksperti, fəlsəfə doktoru Rafiq İsmayılov "Şərq"ə açıqlamasında repetitorluqla orta məktəbin fərqli missiya daşıdığını bildirdi:**

- Məktəb uşağı həyata hazırlayır, repetitor ali məktəbə. Bunlar tamamilə fərqli institutlardır. Nə qədər ki, hazırkı imtahan sistemi mövcuddur, repetitorlara həmişə ehtiyac olacaq. Pandemiya şəraitində, karantin qaydalarının tələbi ilə uşaqlar əyani təhsildən uzaqlaşdı. Amma fərdi qaydada hazırlaşaraq tədrisə davam etdilər, tədris proqramını mənimsədilər. Uşaqların məktəbdən kənar qalması onları tədrisdən deyil, sosial vərdişlərdən, müəllimlə ünsiyyətdən məhrum etdi. Bunlarsa kiçik məsələlər deyil, əksinə, təhsilin çox vacib halqalarıdır.

> "Bu il qəbul imtahanının nəticələrinin yüksək olması heç də abiturientlərin yaxşı hazırlaşması ilə bağlı deyil"

Builki qəbul imtahanlarında yüksək nəticələrə gəlincə, DİM bu məsələləri istədiyi kimi tənzimləyə bilir. Test bankındakı 25 sualdan bəzən 5-i sadə, 10-u çətin, 10-u orta səviyyəli olur. Yaxud da test suallarını 15-i sadə, 15-çətin edirlər. Bunu özləri tənzimləyə bilir. Arzuolunan vəziyyətə salırlar. Ona görə də burada uşaqlar yaxşı hazırlaşmışdı, ona görə nəticələr yüksək oldu" qənaətinə gəlinməsini doğru yanaşma hesab etmirəm.

*R.İsmayılov repetitorluğun gücünün məktəbə transfer edilməsinin bu halda mümkün olacağını dedi:*

- Bu o zaman mümkün ola bilər ki, təhsil mərhələlər və ixtisas qrupları üzrə aparılsın. Bəzi məktəblər bu sistemlə çalışır, əsasən təmayüllü məktəblər. Təhsil mərhələləri I-IV, V-IX, X-XI siniflərarası bölünür. Buraxılış siniflərində şagird hansı ixtisas qrupunu seçirsə, o fənlər üzrə tədris almağa başlayır. Bu halda fərdi qaydada repetitorluğa ehtiyac azala bilər, çünki məktəbdə də şagirdlər artıq ixtisasları üzrə tədris almağa başlayacaqlar. Müəllimlər də tədris proqramını ixtisas qrupu üzrə tədris etməyə üstünlük verəcəklər.

**R.İsmayılov repetitorluq institutunun müxtəlif ölkələrdə fərqli tərzdə mövcud olduğunu dedi:**

- Məsələn, Türkiyədə dərsanələr fəaliyyət göstərir. Məktəbdən kənar dərslərə hazırlaşmaq istəyənlər dərsanələrə gedir. Bu, bizdəki hazırlıq kurslarının bir növüdür. Amma orada daha yüksək səviyyədə təşkil olunub. Xarici ölkələrdə imtahan sisteminə görə uşaqlar hazırlaşır. Hansı imtahan sistemini seçirlərsə, ona uyğun hazırlaşırlar. Bizdəki kimi şagirdin müəllimin evinə getməsi, Avropada yoxdur. Bizdə repetitorluq bir qədər eybəcər şəkil alıb.

# Dörd türk general zatən Azərbaycanda idi

## Onlarla bağlı qərar Türkiyənin Yüksək Hərbi Şurasında avqust ayında verilib





“Biz işimizi görürük, hansısa dövlətin panikaya düşməsi bizi maraqlandırmır. Silahlı Qüvvələrimiz qardaş Türkiyənin dəstəyi ilə bütün vəzifələrin öhdəsindən layiqincə gələcək”

İsmayıl Qocayev

**Ötən ayın sonu Türkiyədə Yüksək Hərbi Şuranın toplantısında qardaş ölkənin Silahlı Qüvvələrini Bakıda təmsil edəcək generalların adları açıqlanıb. Hərbi Şuranın qərarına əsasən, Azərbaycanda Xidmət Qrupu Komandanlığına 4 general təyin edilib.**

Söhbət generallar - Bahtiyar Ersay, Abdullah Katırçı, Ender Güner və Zekeriyyə Yalçından gedir. Deyilənə görə, Bahtiyar Ersay Azərbaycanda Xidmət Qrupu Komandanlığına təyin edilib. General Abdullah Qatırçı da Azərbaycan Xidmət Qrupu Komandanlığının Birgə Mərkəz Komandanlığına təyin edilməklə Egey Ordu Komandanlığına təyinat alıb. General Ender Güner isə Komandanlığın qərargah rəisi təyin edilib. Bununla yanaşı Türkiyə Silahlı Qüvvələrinin Bakıdakı hərbi attaşesi də dəyişib. Yeni hərbi attaşe general Zekeriyyə Yalçın təyin olunub. Təyinatlılar arasında general Ersay xüsusilə diqqət çəkir. Məlumatlara görə, müharibə dövründə general tez-tez Azərbaycanda olub. Yeni təyinatlarla yanaşı, Azərbaycan-Türkiyə hərbi təlimlərinin intensivləşməsi, xüsusilə işğaldan azad edilmiş ərazilərdə ilk təlim və təlimin məhz Laçında keçirilməsi diqqət çəkən məqamlardır. Məlumat üçün onu da qeyd edək ki, Xüsusi Komandanlıq Qrupu yeni qurum deyil. Azərbaycanda 1992-ci ildən fəaliyyət göstərir, lakin bu günə qədər aşağı rütbəli zabitlərlə təmsil olunub. Azərbaycan və Türkiyə son vaxtlar bütün sahələrdə əməkdaşlığı gücləndirib və yeni səviyyəyə qaldırıb. Buna ən bariz nümunə 15 iyun 2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsidir. Bu kontekstdə Xüsusi Komandanlıq Qrupunun güclənməsini ölkələr arasında hərbi-texniki əlaqələrin məntiqi inkişafı hesab etmək olar.

**Təyinatlarla bağlı ”Şərq”ə danışan ehtiyatda olan polkovnik, hərbi ekspert Üzeyir Cəfərov deyib ki, adı çəkilən generalların bəziləri uzun müddətdir Azərbaycanda fəaliyyət göstərirlər. Ekspert vurğulayıb ki, Azərbaycan Ordusu daha da modernləşdirilir və Türkiyə Silahlı Qüvvələrinin modelinə keçid edir:** ”Ali Baş Komandan bu barədə öz fikirlərini bir neçə dəfə söyləyib. Qeyd olunub ki, ordumuz Türkiyə Silahlı Qüvvələri modelinə uyğunlaşdırılacaq. İndiyədək bu istiqamətdə ordumuzda mühüm işlər görülüb və görülməkdə davam edir. Yeni ştatlar yaradılır, önəmsiz ştatlar ixtisar olunur, birləşdirmələr həyata keçirilir. Mediada adları açıqlanan dörd general onsuz da Azərbaycanda idi. Onlarla bağlı qərar isə Türkiyənin Yüksək Hərbi Şurasında avqust ayında verilib. Mətbuat bu barədə yazmamışdı deyə, informasiya yayılmamışdı”.

*Ü.Cəfərov vurğulayıb ki, generallarla bağlı məlumat Ermənistanda və onun havadarlarında narahatlığa səbəb olub:* ”Biz işimizi görürük, hansısa dövlətin panikaya düşməsi bizi maraqlandırmır. Silahlı Qüvvələrimiz qardaş Türkiyənin dəstəyi ilə bütün vəzifələrin öhdəsindən layiqincə gələcək. Öz məqsədlərimizə çatmaq üçün qətiyyətlə irəliyə gedəcəyik. 2022-ci il üçün dövlət büdcəsindən müdafiə xərclərinə 4,5 milyard manat ayrılması nəzərdə tutulur. Bu, çox böyük vəsaitdir və yeni silah-sursatın, müasir hərbi texnikaların alınmasına, şəxsi heyətin maddi-texniki təminatının daha da yaxşılaşdırılmasına sərf olunacaq. Azərbaycan ordusu inkişaf yolundadır. Silahlı Qüvvələrimizlə bağlı bundan sonra ancaq xoş xəbərləri eşidəcəyik”.



# Ümid edirik...

## ABŞ Azərbaycanın azad iqtisadi zonasında iştirak edəcək

Yeganə Bayramova



**ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberger ADA Universitetində ”Regional enerji təhlükəsizliyi” mövzusunda keçirilən simpoziumda çıxış edib. O qeyd edib ki, Azərbaycan uzun illərdir strateji və ticarət tərəfdaşları ilə birgə dayanıqlı enerji infrastrukturu yaradıb.**

Cənub Qaz Dəhlizinin tikintisini başa çatdırmaları münasibətilə SOCAR və BP-ni təbrik edən Ö. Litzenberger bu layihənin qarşıdakı onillər boyu Avropanın enerji təhlükəsizliyini dəstəkləyəcəyini bildirib: ”Cənub Qaz Dəhlizi Azərbaycanı və SOCAR-ı bir çox müttəfiqlərimiz və tərəfdaşlarımız üçün enerji təhlükəsizliyi baxımından öncül mövqeyə çıxardır”.

Amerikalı diplomat Avropaya və başqa regionlara enerji daşıyıcıları tədarükü sahəsində Cənub Qaz Dəhlizi layihəsini və Azərbaycanı dəstəkləməkdə maraqlı olduqlarını diqqətə çatdırıb.

**Azərbaycanın Amerika ilə enerji sahəsində hər zaman uğurlu əməkdaşlıq etdiyini vurğulayan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə ”Şərq”ə söyləyib ki, hər iki ölkə enerji təhlükəsizliyinə dair böyük layihələri həyata keçirib:** “Bakı-Tbilisi-Ceyhan layihəsi nəticəsində Avropa ölkələri Azərbaycan neftindən bəhrələnə bilib. Amerika bu layihəni həyata keçirməkdə dövlətimizə siyasi dəstək verib. Eyni zamanda Cənub Qaz Dəhlizi artıq Avropanın qaz enerjisi ilə təmin olunması prosesində böyük rola malikdir.

Bəzi ölkələr məhz Azərbaycan qazı hesabına enerji təhlükəsizliyini təmin edə bilib. Ona görə də Amerika hər zaman ölkəmizin enerji layihələrini dəstəkləyib və onları yüksək qiymətləndirib. Bizim bu sahədə əməkdaşlığımız davam etdiriləcək. Ümid edirəm ki, ABŞ gələcəkdə də Azərbaycanın azad iqtisadi zonasında iştirak edəcək.

Çünki dövlətimiz bölgədə böyük enerji layihələri ilə yanaşı beynəlxalq əhəmiyyət kəsb edən nəqliyyat və azad zona yaradıb. Bu da bölgənin ticarət dövriyyəsini artıracaq, bəzi ölkələrin, xüsusilə Amerikanın müttəfiqi olan dövlətlərin bu prosesdə marağını gücləndirəcək. Bu istiqamətdə olan əməkdaşlıqlar da Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir”.

İsmayıl Qocayev

# Heç kim boşuna əndişələnməsin

## Siyasi partiyalar haqqında qanun layihəsinə qarşı gözdənsalma kampaniyası aparmaq doğru deyil

**Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin iştirakı ilə ölkədə fəaliyyət göstərən partiyaların ”Siyasi partiyalar: Zəfər, yeni reallıq və dialoq” mövzusunda görüşü keçirilib. Görüşdə bir çox mühüm məsələlərlə yanaşı, ”Siyasi partiyalar haqqında” qanun layihəsi də müzakirə mövzusu olub.**

Administrasiyanın şöbə müdiri qeyd edib ki, yeni qanun layihəsinə dair siyasi partiyalar tərəfindən təqdim olunmuş təkliflər müzakirə edilməkdədir. ”Siyasi partiyalar haqqında” qanun layihəsinin Milli Məclisin payız sessiyasında müzakirəsi gözlənilir. İctimaiyyətdə, xüsusən siyasi təşkilatlar çərçivəsində isə müzakirələr indidən başlayıb. Parlamentdə təmsil olunmayan müxalif partiyalar yeni qanun layihəsinin onların maraqlarına cavab verməyəcəyindən narahatlıq ifadə edirlər.

**Vurğulanan məqamla bağlı fikirlərini ”Şərq”lə bölüşən Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov ilk növbədə özünün də iştirak etdiyi mühüm görüşlə bağlı danışıb. Partiya rəhbəri bildirib ki, adından da göründüyü kimi sözügedən konfrans günümüz üçün olduqca əhəmiyyətli bir məsələyə, siyasi partiyaların 44 günlük Vətən müharibəsindəki Zəfərdən sonra formalaşmış yeni reallıqlarda yeri və roluna həsr olunmuşdu:** ”Görüşün təşkilinə görə hörmətli Ədalət Vəliyevə təşəkkürlərimi bildirirəm. Siyasi partiyaların ölkə əhəmiyyətli məsələlərin müzakirəsi və dialoq mühitinin dərinləşdirilməsi məqsədilə bu formatda vaxtaşırı bir araya gətirilməsi müsbət ənənəyə çevrilməkdədir. Postmüharibə dövründə bu cür geniş tərkibdə müzakirələrə hava-su kimi ehtiyac var. Konfrans olduqca səmimi atmosferdə keçdi və səmərəli müzakirələrlə, aktual təkliflərlə yadda qaldı. Parlamentdə təmsil olunmayan, əsasən də müxalif siyasi təşkilatların yeni qanun layihəsi ilə bağlı mülahizələrinə normal baxıram. Demokratik şərait hər bir siyasi partiya rəhbərinə və ya təmsilçisinə öz fikirlərini açıq şəkildə dilə gətirməyə, ictimailəşdirməyə imkan verir. Həmin

“Partiya sədrlərinin narahatlıqları, təklifləri Ədalət müəllim tərəfindən “top-tüfəng”lə yox, çox normal şəkildə və təmkinlə qarşılandı”



partiyalardan çoxu tədbirdə iştirak edirdi. Bəzi partiya sədrləri ”Siyasi partiyalar haqqında” əvvəlki qanun barəsində də, yeni qanun layihəsi haqda da öz fikirlərini bölüşdülər. Narahatlıqlarını və ya təkliflərini dilə gətirdilər. Onların fikirləri, təklifləri konfransın təşkilatçısı Ədalət müəllim tərəfindən ”top-tüfəng”lə yox, çox normal şəkildə və təmkinlə qarşılandı. İnsaf naminə onu da demək lazımdır ki, Ədalət müəllim natiqlər tərəfindən səsləndirilən bütün önəmli təklifləri şəxsən özü qeyd edirdi. Çıxışının sonunda xüsusi olaraq bildirdi ki, bütün təkliflər cənab Prezidentə məruzə ediləcək. Yəni demək istədiyim odur ki, ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsi hələ ortaya gəlməmiş, müzakirəyə təqdim edilməmiş heç kim boşuna əndişələnməsin. İndidən qərəzli şəkildə bədbin proqnozlarla çıxış etməyin mənası yoxdur. Yeni qanun layihəsinə qarşı gözdənsalma kampaniyası aparmağa lüzum görmürəm”.

**Ə.Hüseynov vurğulayıb ki, əgər söhbət radikal müxalifətdən gedirsə, onlara onsuz da nəyisə bəyəndirmək mümkün deyil:** ”Radikalların ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsinin mahiyyəti, məzmunu barədə nə düşündükləri opponentləri üçün elə də əhəmiyyət kəsb etmir. Sizi inandırıram ki, hətta Avropa Birliyi (AB) ekspertlərinin iştirakı və tövsiyələri ilə hazırlanmış ən demokratik qanun layihəsini də onlara təqdim etsəniz, layihədə nəsə ”əmma” tapacaqlar. Çünki total inkarçılıq onlarda xroniki və pataloji hal alıb. Görüşdə səsləndirilən fikirlər və təkliflər əsasında əminliklə deyə bilərəm ki, iqtidarla müxalifət arasında formalaşmaqda olan yeni siyasi mədəniyyət cəmiyyəti və siyasi qüvvələri narahat edən istənilən məsələni və ya problemi konstruktiv şəkildə, sivil formada müzakirə etməyə və birgə çıxış yollarını tapmağa imkan verir”.

# Zelenskinin açıqlaması daxili auditoriyaya hesablanıb

## Ukrayna indiki halda konkret ABŞ-ın dəstəyini almadan müharibəyə girə bilməz



**Ukrayna Prezidenti Vladimir Zelenski ölkəsi ilə Rusiya arasında genişmiqyaslı müharibə ehtimalını mümkün hesab edir.**

Bu barədə Ukrayna Prezidenti V.Zelenski Yalta Avropa Strategiya Forumunda (YES) çıxışı zamanı bildirib. O vurğulayıb ki, bu mövzuda potensial var və bu, Rusiyanın ən böyük səhvi olacaq. V.Zelenski qeyd edib ki, hazırda ukraynalılarla rusiyalılar arasında boşluq var, lakin vaxt keçdikcə əlaqələr düzələ bilər.

**Mövzu ilə bağlı “Şərq”ə açıqlamasında AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli bildirib ki, əslində Zelenskinin bu fikirləri daxili auditoriyaya hesablanıb.** Politoloq qeyd edib ki, Ukrayna indiki halda konkret ABŞ-ın dəstəyini almadan müharibəyə girə bilməz: ”Hazırda Donbasda hərbi əməliyyat aparmaq üçün Ukraynada siyasi iradə çatmır. Çünki Rusiya konkret Ukraynaya xəbərdarlıq edib ki, əgər Şərqi Donbasa ordusunu yeritsə, o zaman Rusiya ona müdaxilə edəcək. Ümumiyyətlə, Ukrayna Rusiya ilə üz-üzə gəlməyə konkret hazır deyil. Əgər ABŞ Ukraynaya konkret dəstək verərsə, bəli, o zaman Şərqi Donbasda genişmiqyaslı əməliyyatlar ola bilər. Ancaq hazırda bu çıxış daxili auditoriyaya hesablanmış çıxışdan başqa bir şey deyil”.

**Aynurə**

Yeganə Bayramova

# Ermənistan Rusiyasız qərar verməlidir

**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova həftəlik brifinqdə bildirib ki, Qarabağdakı rus sülhməramlılarının məsuliyyət zonasında ciddi pozuntular yoxdur. Onun sözlərinə görə, bu, həm Bakıda, həm də İrəvanda təsdiqlənir.**

Rəsmi İrəvanın son açıqlamalarına münasibət bildirən Zaxarova qeyd edib ki, Rusiya tərəfi Azərbaycanla Ermənistanda sülh müqaviləsinin bağlanması ilə bağlı müzakirələri yaxından izləyir.

”Siyasi mövzularda əsas fikir ayrılıqları, təəssüf ki, davam edir, buna görə də bu mərhələdə 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli bəyanatın bütün müddəalarının ən yüksək səviyyədə yerinə yetirilməsini prioritet hesab edirik. Humanitar məsələlər, iqtisadi və nəqliyyat əlaqələrinin açılması və digər bu kimi addımlar Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına və son siyasi həllinə nail olmaq üçün şərait yaratmağa kömək edəcək”.

Maraqlıdır, Zaxarova hansı sülh danışıqlarını nəzərdə tutur və pərdəarxası olsa da, hələ ki, ictimaiyyətə açıqlanmayan hansısa danışıqlar varmı?

**Zaxarovanın heç bir zaman Azərbaycana qarşı səmimi olmadığını qeyd edən siyasi elmlər doktoru, professor, politoloq Cümşüd Nuriyevin ”Şərq” açıqlamasına görə, o həmişə Rusiya dövlətinin sözçüsü kimi çıxış edib, XİN-in rəsmi nümayəndəsi kimi yox:**

”Bu şəxs təhlükəsizlik orqanları ilə birgə işlədiyinə görə, təbii ki, söylədiyi fikirlər də bilavasitə yuxarıdan ötürülüb. Ona görə də rus sülhməramlıları haqqında dedikləri təəccüblü deyil. Amma Zaxarova bir məqamı nəzərə almalıdır: Azərbaycan rus sülhməramlıları adı altında bölgəyə yerləşdirilən hərbçilərin fəaliyyətindən dövlət səviyyəsində narazıdır”.



“Sülh müqaviləsi Ermənistanla Azərbaycanın parlamentində müzakirə edilib, qəbul olunmalıdır”

**C.Nuriyev Azərbaycanla Ermənistan arasında hələ ki hansısa sülh danışığının olmadığını da diqqətə çatdırıb:**

”Zaxarovanın sülh müqaviləsi barədə dedikləri cəmiyyətimizə hesablanıb. Çünki cənab Prezident açıq şəkildə elan edib ki, biz Ermənistanla sülh müqaviləsi imzalamağa hazırıq. Son zamanlar Paşinyan Rusiyadan asılı olmayan, Ermənistanı xilas etmək üçün ”isti” mesajlar verir. Həmin mesajlar sərhədlərin müəyyənləşdirilməsi, dəhlizin açılması, hava məkanında danışıqların getməsi ilə əlaqədardır. Əslində Zaxarova sülh danışıqları barədə fikirlərini elan etməməlidir. Rusiya guya bu məsələdə 3-cü hakimdir, ancaq özünü tərəf kimi aparır. Azərbaycanla Ermənistan arasında gizli danışıqla olsa belə, bunun ictimaiyyətə açıqlanmama səbəbi var. Çünki hər iki ölkə Rusiyanı gözəl tanıyır. Bilirlər ki, Kreml danışıqların şərtlərinə maneçilik törədə bilər. Ona görə də sülh müqaviləsi hər iki ölkənin parlamentində müzakirə edilib, qəbul olunmalıdır. Artıq Ermənistan parlamentində Qarabağla bağlı komissiyanın yaradılmasına ”yox” deyilib. 30 ildən sonra birdən-birə Ermənistan parlamentində bu komissiyanın yaradılmaması o deməkdir ki, rəsmi İrəvan danışıqlara hazırdır. Lakin danışıqlar üzə çıxandan sonra Rusiyanın bununla bağlı diktəsinə imkan verməK olmaz!”.

# "Avropada qəzetlər dijitallaşdı və çap mətbuatı ayaqda qaldı"



## Rizvan Qənbərli: "Bəzən deyirdilər ki, çap mətbuatı tədricən sıradan çıxacaq və həmin proses inkişaf etmiş ölkələrdə xüsusi sürətlə baş verəcək. Lakin əksi müşahidə edildi"

**Zaman ötür, dövr dəyişir. Bu, əlbəttə, bir çox sahələrə, o cümlədən də birbaşa vaxtla ayaqlaşan jurnalistikaya təsir göstərir. Təsadüfi deyil ki, KİV orqanlarının tipologiyasında, tərtibatında ciddi fərqlər müşahidə olunur. Və həmin müxtəliflik həm də məzmuna təsirsiz ötüşmür. Janrlar arasında "ərimə", "birləşmə" əmələ gəlir. Bu isə medianın gələcəyi üçün yeni sürprizlər vəd edir.**

*"Şərq" olaraq jurnalistikanın sabahı barədə tanınmış media nəzəriyyəçisi Rizvan Qənbərli ilə müzakirə apardıq:*

**- Jurnalistikanın müasir inkişaf meyilləri gələcək üçün nələr vəd edir?**

- Hazırda jurnalistika dijital texnologiyaların təsiri altında fəaliyyət göstərir. İndi smartfonu olan hər kəsin potensial jurnalist hesab olunduğu dövrdə yaşayırıq. Müxtəlif alqoritmlər xəbər alma və xəbər vermə prosesinə təsir edir. İnternet imkanları jurnalistikanı müəyyən mənada yeniləyir. Amma medianın mahiyyəti, əsas prinsipləri dəyişmir. Sadəcə jurnalistika texnoloji yeniliklərin təsiri ilə yeni dövrün şərtlərinə uyğunlaşır. İKT-nın medianın inkişafındakı müsbət rolu çoxdur. Bunu aparıcı media orqanlarının fəaliyyətinə baxaraq görmək mümkündür.

**- Belə demək mümkünsə, hazırda qəzetlərə "süni nəfəs verildiyi" məlumdur. Qəzetlərin taleyi ilə bağlı fikirlərsə, müxtəlifdir. Sizcə, çap mətbuatının sabahı necə olmalıdır?**

- Əlbəttə, internet jurnalistikanın inkişafına təsir etdi və bu, özünü ölkəmizdə daha kəskin göstərdi. Bəzən deyirdilər ki, çap mətbuatı tədricən sıradan çıxacaq və həmin proses inkişaf etmiş ölkələrdə xüsusi sürətlə baş verəcək. Lakin əksi müşahidə edildi. Avropada qəzetlərin dijital versiyaları yaradıldı. Kontent, format, fəaliyyət yeni tələblərə uyğunlaşdı. Və bu, çap mətbuatının ayaqda qalmasına səbəb oldu. Tirajın, oxucu sayının azalması isə qəzetin texnoloji vasitə kimi sıradan çıxdığını göstərir.

**- Bunun qarşısını almaqdan ötrü nə etmək lazımdır?**

- İndi informasiya saniyələrlə ölçülür. Auditoriyanın qəzetə ehtiyacı qalmayıb. Fikrimcə, Azərbaycandakı qəzetlər bir çox Avropa ölkələrində olduğu kimi, hadisələrin dərin qatlarına varmalı, geniş təhlillər təqdim etməlidirlər. 90-cı illərdə olduğu kimi qəzetlərin həftəlik nəşri daha məqsədəuyğundur.

**- İKT-nin getdikcə kütləviləşdiyi bir vaxtda peşəkar jurnalistikanın gələcəkdə həm də sosial medianı özündə ehtiva etməsi nə qədər mümkündür?**

> "Azərbaycandakı qəzetlər bir çox Avropa ölkələrində olduğu kimi, hadisələrin dərin qatlarına varmalı, geniş təhlillər təqdim etməlidirlər"

- Bu gün jurnalistika auditoriya ilə dialoqu sosial media vasitəsilə aparır. Sosial medianın kütləviləşməsi də məhz ənənəvi mediadakı problemlər, xüsusilə informasiyanın təktərəfli olması ilə əlaqədardır. İnternet bunu dəyişdi, interaktivlik yaratdı. Beləliklə, ənənəvi jurnalistika auditoriyanı diqqətdən kənarda saxladığını anladı. İkinci bir tərəfdən, sosial media jurnalistlər üçün məlumat mənbəyinə, hazır materialın paylaşıldığı platformaya çevrildi. Bu gün məhz sosial media vasitəsilə informasiya ötürülür, yayılır, dəqiqləşdirilir... Deməli, müasir jurnalistika sosial mediadan kənarda qala bilməz.

**- Ən çox müzakirə olunan məsələlərdən biri qeyri-ixtisas sahiblərinin jurnalistika ilə məşğul olmasıdır. Sizin bu məsələyə münasibətiniz necədir?**

- Bu, jurnalistikaya hansı hallarda peşə kimi yanaşmaqla bağlıdır. Belə ki, jurnalistika bəzən peşədən çox, reaksiya, münasibətdir. Məsələn, məşhur "Plutzer" mükafatını alanlardan biri adi vətəndaş idi. Deməli, xüsusilə İKT-nin inkişaf etdiyi bir vaxtda nəinki jurnalistika ixtisasına yiyələnməmək, jurnalist vəsiqəsinə sahib olmamaq da ciddi problem deyil. Əgər jurnalistika ictimai rəy yaratmaqdırsa, bunu digər peşə sahibləri, o cümlədən həkimlər, politoloqlar, iqtisadçılar da edə bilərlər. Yaxşı jurnalist olmaq üçün jurnalistika ixtisasına yiyələnmək, diplom sahibi olmaq şərt deyil. Amma fikrimcə, jurnalistika təlimi keçmək labüddür. Bu, medianın ümumi prinsipləri, etik kodeksləri barədə məlumatlı olmaq üçündür.

**- Ümumiyyətlə, jurnalistika fakültələrinin tədris proqramlarında hansı dəyişikliyə ehtiyac var?**

- Düzü, son tədris proqramları barədə məlumatlı deyiləm. Amma jurnalistika əsas üç istiqamətdə - informasiya ilə iş; tələb olunan nəzəri və praktiki biliklərin formalaşması; azadlıq prinsiplərinin, o cümlədən etik kodekslərin aşılanması baxımından tədris edilməlidir. Bəzən universitetlərin nəzəriyyə ilə praktikanı qarşı-qarşıya qoymasından gileylənirlər. Bunu daha çox öyrədilənləri təcrübədə tətbiq edə bilməyənlər deyirlər. Fikrimcə, nəzəriyyə və praktika bir-birini tamamlayır və biri olmadan digərini təsəvvür etmək olmaz. Ali məktəblər isə tələbələri sahənin tələbləri əsasında yox, özləri ideal jurnalisti necə görürlərsə, elə yetişdirməlidirlər. Amma təəssüf ki, bəzən mənasız addımlar da atılır.

**- Nə kimi?**

- Məsələn, ali məktəblərə qəbul zamanı qabiliyyət imtahanının keçirilməsi buna bariz nümunədir. Hələ də jurnalisti ancaq yaxşı yazan biri kimi təsəvvür edirlər. Dünyada jurnalistika sahəsində yeni proqramlar tərtib olunub. Zənnimcə, biz də onlardan yararlanmalı və tədrisi daha çox yeni texnologiyaların jurnalistikaya təsiri üzərində qurmalıyıq.

**Kənan Novruzov**



**Qarabağda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlıları ilə erməni separatçıları arasında silahlı insident yaşanıb. Bu barədə xəbər sosial şəbəkələrin erməni seqmentində yayılıb. Məlumata görə,**

# Ağdərədə insident

## Sülhməramlılar ermənilərin qeyri-qanuni postunu söküblər

**İsmayıl Qocayev**

**münaqişəyə səbəb rusiyalı sülhməramlıların Ağdərə rayonu istiqamətində ermənilərin quraşdırdığı postlardan birinin sökülməsini tələb etmələri olub.**

Sülhməramlıların tələbini yerinə yetirməkdən boyun qaçırdıqlarına görə erməni hərbçilərilə münaqişə yaranıb. Münaqişə yaransa da, rusiyalı sülhməramlılar postu söküblər. Lakin ermənilər həmin ərazinin minalandığını Rusiyanın sülhməramlı kontingentinin mənsublarına bilərəkdən deməyiblər. Nəticədə sülhməramlılardan iki əsgər piyada əleyhinə minalara düşərək ağır yaralanıblar. Yaralılar Xankəndindəki hospitala aparılıb. Rusiyanın Qarabağdakı sülhməramlı kontingentinin komandanlığı olayı araşdırır.

**Hadisəni "Şərq"ə təhlil edən Qarabağ Azadlıq Təşkilatının rəhbəri Akif Nağı deyib ki, Azərbaycan ictimaiyyətinin Rusiya sülhməramlılarından narazılığı hər gün ifadə olunmaqdadır.** QAT sədrinin sözlərinə görə, rəsmi Bakının və Azərbaycan xalqının rus sülhməramlılarından konkret tələbi odur ki, öz missiyalarını yerinə yetirsinlər və səlahiyyətlərini aşmasınlar: "Rusiya sülhməramlıları 10 noyabr bəyanatına əsasən, Qarabağdakı qanunsuz erməni silahlılarını dərhal tərksilah etməli, bölgədən çıxartmalıydı. Orada yeni terrorçu dəstələrin yaranmasına imkan verməməliydi. Amma məqsədləri başqa olduğu üçün bunu etmədilər. Əksinə, Laçın dəhlizi vasitəsi ilə separatçılara silah-sursat daşındı, erməni quldurlarını silahlandırdılar. Bununla da məsuliyyət zonalarındakı erməni silahlılarının Şuşanı, Ağdamı atəşə tutmasına şərait yaratdılar. İndi ruslar qazdıqları quyuya özləri düşür. Erməni separatçıları rusların da "sözünə baxmır", hətta onların həyatına təhlükə yaradacaq əməllərə əl atırlar. Vaxtında tələb olunan addımları atsaydılar, indi bu cür təxribatla üzləşməzdilər".

> "Separatçılar artıq rusların da "sözünə baxmır, hətta onların həyatına təhlükə yaradacaq əməllərə əl atırlar"

A.Nağı qeyd edib ki, bu insident ciddi prosesin başlanğıcı olmalı, Rusiya sülhməramlıları nəhayət öz missiyalarını yerinə yetirməyə başlamalıdır: "Əfsuslar ki, sülhməramlıların yeni komandanının ilkin hərəkətlərinə nəzər yetirdikdə ədalətli missiyanın icrasına ümid edə bilmirik. Çünki yeni komandan vəzifəyə başlamamış Ermənistandakı 102-ci hərbi bazanın rəhbəri ilə Müdafiə naziri A.Karapetyan ilə görüşüb. Rusiya sülhməramlıları Azərbaycan ərazisində yerləşdirilib. Əgər onlara komandan təyin olunursa, ilk görüş Bakıda olmalıdır, bizdən razılıq alınmalıdır".

# Xoş gəldiniz, paşalar!

## Kreml xəbərdardır ki, artıq Türkiyənin Azərbaycanda Xidmət Qrupu Komandanlığı yaradılıb



> "Rusiyanın iki hərbçisinin bizim regiona gəlməsiylə bölgədə nələrinsə əhəmiyyətli dərəcədə dəyişəcəyini düşünmürəm"

**Xəbər verdiyimiz kimi, Azərbaycanın Qarabağ bölgəsində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlılarının yeni komandanı vəzifəsinə general-mayor Mixail Kosobokov təyin olunub.**

Mixail Kosobokov 1999-cu ildə Ryazan Ali Hərbi Hava-Desant Məktəbini bitirib. Kosobokov Cənub Hərbi Dairəsinin 58-ci Birləşmiş Silahlı Qüvvələrin komandir müavini vəzifəsində çalışıb. Sülhməramlıların yeni komandiri Rusiyanın Abxaziyadakı 7-ci hərbi bazasına komandanlıq edirdi. 2016-cı ildə general-mayor rütbəsi alıb. Qeyd edək ki, Kosobokovun adı Ukraynanın "Mirotvoreç" saytının məlumat bazasına daxil edilib. Ukrayna tərəfi Kosobokovu Donbasdakı separatçılara silah-sursat çatdırmaqda və Rusiya ordusunun hissələrini Ukrayna ərazisinə göndərməkdə ittiham edir. Bəzi ekspertlər general M.Kosobokovun sülhməramlı kontingentə komandan təyin edilməsini və eyni gündə polkovnik Dmitri Ovçarovun isə Ermənistandakı 102-ci hərbi bazaya rəhbərliyə göndərilməsini Moskvanın açıq oyuna başlaması kimi qiymətləndirirlər.

*Millət vəkili Sahib Alıyev vurğulayıb ki, general Kosobokov separatçı ünsürlərə sevgisi və onlarla sıx işbirliyində olması ilə tanınır. Deputatın sözlərinə görə, o təkcə Rusiyanın Abxaziyadakı bazasının komandiri olmayıb. Eyni zamanda hələ polkovnik rütbəsindəykən adı Donbasdakı separatçılarla sıx əlaqədə hallandırılıb:* "General Ukraynada hərbi cinayətkar sayılır. Kosobokov kimi desantçılar məktəbinin yetirməsi olan Dmitri Ovçarov isə 2008-ci ildə Gürcüstanla savaşda fərqlənənlərdən biridir. Onun adı Qafqazda bir sıra "özəl" əməliyyatlarda hallandırılır. Zamanında kazakların cəlb olunduğu polka rəhbərlik edib. Kazakların missiyalarının nədən ibarət olduğu isə heç kəsə sirr deyil. Açığı, Rusiyanın iki hərbçisinin bizim regiona gəlməsiylə bölgədə nələrinsə əhəmiyyətli dərəcədə dəyişəcəyini düşünmürəm. General Kosobokovu 2017-ci ildə Krımda keçirilən hərbi parada rəhbərlik etməyə göndərənlər yəqin "Krım platforması"nın varlığından və rəsmi Bakının o platformaya yanaşmada ölçülü-biçili davranışlarından xəbərdardılar. Ondan da xəbərdardılar ki, Türkiyənin Azərbaycanda Xidmət Qrupu Komandanlığı yaradılıb. Böyük döyüş təcrübəsi olan dörd generalın yer aldığı komandanlığa separatçı-terrorçu ünsürlərə qan uddurmasıyla tanınan general Bəxtiyar Ərsay rəhbərlik edir. Xoş gəldiniz paşalar, vətəniniz Azərbaycana".

**İsmayıl Qocayev**



# Ən yaxşısı Azərbaycan nümunəsidir

## Gürcüstandakı soydaşlarımızın soyadlarının milliləşməsi lazımdır

**Yeganə Bayramova**

**Gürcüstan parlamentində azərbaycanlı vətəndaşlara soyad sonluqlarını dəyişdirməyə hüquqi əsas verəcək qanun layihəsinin müzakirəsi üçün işçi görüş keçirilib. Bu barədə qanunverici orqanın Mətbuat xidmətindən bildirilib.**

Görüşdə İnsan haqları və vətəndaş inteqrasiyası məsələləri üzrə Komitənin sədri Mixeil Sarcveladze, onun müavini Savalan Mirzəyev, parlament üzvü Zaur Darğallı, ədliyyə nazirinin müavini Tornike Çeişvili və Dövlət Xidmətlərinin İnkişafı Agentliyinin nümayəndələri iştirak ediblər.

Bildirilib ki, komitədə Gürcüstan vətəndaşlarına (yezidilər, azərbaycanlılar da daxil olmaqla) tarixi və mədəni ənənələrinə uyğun olan soyadlarının qaytarılmasına imkan verəcək qanunvericilik dəyişikiliyi üzərində iş aparılır.

Bu məsələnin müxtəlif etnik mənsubiyyətli şəxslər üçün əhəmiyyətini vurğulayan görüş iştirakçıları bununla bağlı mövcud problemləri və onların həlli yollarını da müzakirə ediblər. Xatırladaq ki, Gürcüstanda yaşayan soydaşlarımız onlara soyadlarından "ov" və "yev" sonluqlarının götürülməsi hüququnun verilməsini istəyirlər.

**Qanun layihəsi barədə fikirlərini "Şərq"lə bölüşən "Borçalı" İctimai Birliyinin sədri, ictimai-siyasi xadim Zəlimxan Məmmədli vurğulayıb ki, sovet imperiyasının təsiri altında yaşadıqca rusların təlqin etdiyi "ov", "yev" sonluqlu soyadlarından istifadə etdik. Təbii ki, bu durum mahiyyətimizə də müəyyən mənada təsir göstərib:**

"Bu baxımdan qeyd olunan qanun layihəsinin qəbuluna dair təşəbbüs bütün hallarda düzgündür. Gürcüstandakı soydaşlarımızın soyadlarının milliləşməsi lazımdır. Artıq Sovet imperiyası dağılıb, eyni zamanda ölkəmizdəki parlament və hökumət üzvlərinin əksəriyyəti "ov" və "yev" soyadındadır. Çünki Azərbaycan Respublikasının soyadların milliləşməsi ilə bağlı qanununa etinasızlıq və hörmətsizlik var. Ona görə də ölkəmiz bu sahədə yaxşı nümunə ola bilmədi.

Gürcüstandakı soydaşlarımıız Azərbaycanın mənəvi dünyasının tərkib hissəsidir. Hətta "Gürcüstan azərbaycanlıları" adlı bir ifadə var. Bu ifadə ilə razı deyiləm.

Düşünürəm ki, Azərbaycan qanunvericiliyində soyadlarımız "lı", "li", "soy", o cümlədən "oğlu" sonluğu ilə bitə bilər. Keçmiş zamanlarda nəslin adı ilə tanınma da mövcud olub. Bu baxımdan indi də soyad kimi nəslin adından istifadə etmək mümkündür. Beləliklə, millət olaraq vəhdətimizə və mənəvi birliyimizə təkan vermiş olarıq. Başqa alternativlər axtarsaq, çox mübahisələr çıxacaq, "alimlər" peyda olacaq".

**Z.Məmmədlinin qənaətincə, ən yaxşısı odur ki, Azərbaycan nümunəsi olsun və əhalinin soyadı kütləvi şəkildə milliləşsin:**

"Soydaşlarımızla bağlı müvafiq qanunvericilik bazasının qəbul olunacağına ümid edirəm. Çünki qanun layihəsi ilə bağlı Gürcüstan parlamentində və bizim nümayəndələrin ilkin müzakirələrində pozitiv bir ovqat var".

# Təlimlər düşmənə "radar" işarəsidir

> "Müharibə başlasa, ordumuzun istiqaməti Zəngəzura olacaq"

> "Ermənistanın düz yanında iki dövlət, bir millətin təlimi düşmənə "həddini aşma!" deməkdir"

**Kənan Novruzov**

**"Ermənistan 10 noyabr üçtərəfli razılaşmasının nə demək olduğunu hələ də anlamayıb. Ölkədəki ruspərəstlər, o cümlədən "Qarabağ klanı" baş nazir Nikol Paşinyanın imzalamağa məcbur qaldığı müqaviləni qəbul etmək istəmir".**

*Bu sözləri Laçında Azərbaycanla Türkiyənin birgə hərbi təlimləri barədə "Şərq"ə danışan türkiyəli ehtiyatda olan general Osman Qazi Kandemir deyib.*

Generalın sözlərinə görə, hazırlıqlar təkcə hərbi əhəmiyyətli deyil:




"Ermənilər məğlubiyyəti qəbul etmək istəmirlər. Çünki onlar iki yüz ildir rusların və başqalarının türk düşmənliyindən yararlanaraq irəlilədilər. Düşmənlər ilk dəfə idi ki, işğal etdikləri torpaqlardan çıxmalı oldular. Qaçqın vəziyyətinə salınan, yurd-yuvalarından didərgin salınan türklər ilk dəfə evlərinə qayıtdılar. Bu məqsədlə 10 noyabr razılığını pozmaq istəyənlər var. Dediyim kimi, xüsusilə ruspərəstlər bunun üçün təxribatlar törədirlər. Onlara "alovla oynadıqlarını" başa salmaq lazımdır. Bu baxımdan Azərbaycan və Türkiyənin Laçında birgə təlimləri siyasi önəm daşıyır".

O.Q. Kandemirin fikrincə, təlimlər düşmənə "radar" işarəsidir:

"Mesaj budur: müqavilə pozulsa, iki qardaş dövlət müdaxilə edəcək. Ermənistanın düz yanında iki dövlət, bir millətin təlimi düşmənə "həddini aşma!" deməkdir. Əks halda olacaqlar məlumdur. Ermənistandakı siyasətçilər artıq anlamalıdırlar ki, Azərbaycanı məğlub edəcək gücləri yoxdur. Tamamilə tükəniblər, yolun sonuna gəliblər.

Müqavilə pozulsa, yeni bir müharibə başlasa, ordumuzun istiqaməti Zəngəzur olacaq.

Bu dəfə Azərbaycanla Naxçıvanın birləşməsini və oradan Türkiyə ilə quru yolun bərpasına kimsə mane ola bilməyəcək. Beləliklə, Zəngəzur da azad olacaq. Azərbaycanın bunu edəcək gücü var. Ermənistan ağıllı davranmalı, sülhə xidmət etməlidir. Bu, ən çox özlərinə xeyirdir".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Uşaq və gənclərin fiziki və mənəvi inkişafı**

İsmayıl Qocayev



# "Gənclər həm ön, həm də arxa cəbhənin əsgəri oldular"

## Fərid Şahbazlı: "Dövlət başçısının gənclərin milli ruhda tərbiyəsinə diqqət çəkməsi çox-çox önəmlidir"

**Dövlət başçısı İlham Əliyev sentyabrın 7-də yeni Gənclər və idman naziri Fərid Qayıbovu qəbul edərkən mühüm məqamlara toxundu. Ölkə rəhbəri gənclər qarşısında yeni hədəflər müəyyənləşdirdi və bu istiqamətdə öz tapşırıqlarını verdi. Xüsusən vurğuladı ki, bütövlükdə gənclərimizin tərbiyə edilməsi prosesi hər zaman diqqət mərkəzində olmalıdır. Gənclərimiz ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Prezident qeyd edib ki, həm məktəblərdə, həm ailələrdə ənənəvi dəyərlər bizim əsas sütunumuzdur:**

"Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas prinsipdir və gənc nəsil də bu ruhda tərbiyə almalıdır, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdır. Gənc nəsil mənfi xarici təsirdən uzaq olmalıdır və buna nail olmaq üçün tərbiyə işləri aparılmalıdır. Gənclər savadlı, bilikli olmalıdırlar, eyni zamanda, milli mədəniyyətimizə yaxın olmalıdırlar". Dövlət başçısı bəyan edib ki, gənclər milli dəyərlərimizi dərk etməli, onları yaşatmalıdırlar və bu istiqamətdə çox ciddi iş aparılmalıdır: "İndiki dünyada qloballaşma prosesləri gedir və bəzi hallarda xarici dairələr gəncləri özləri üçün əsas hədəf seçirlər. Yəni gəncləri aldatmaq, yoldan çıxarmaq üçün səylər göstərilir. Biz bunu görürük və əlbəttə, bunun qarşısı alınmalıdır. Burada vətənpərvərlik hissləri ön planda olmalıdır. Əlbəttə ki, İkinci Qarabağ müharibəsindəki parlaq tarixi Qələbəmiz gənclərin tərbiyə işində əsas rol oynamalıdır. 44 günlük Vətən müharibəsinin hər günü bizim üçün əzizdir, doğmadır. Vətən uğrunda öz canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bizim üçün doğmadır, bizim üçün müqəddəsdir və gənclər bu nümunələr əsasında tərbiyə almalıdırlar".

"Gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər" - deyən ölkə başçısının sözlərinə görə, bunun çox böyük mənəvi və psixoloji mənası var: "Uzun illər Azərbaycan işğala məruz qalmış ölkə, biz azərbaycanlılar isə düşmən tərəfindən öz doğma torpağından didərgin salınmış xalq kimi yaşamışıq. Əzab-əziyyət içində yaşamışıq, fiziki və mənəvi əzablar içində yaşamışıq. Biz buna son qoyduq. Bundan sonra müzəffər xalq kimi, qalib ölkə kimi, qürurlu insanlar kimi əbədi yaşayacağıq. Bu şanlı tarixi yaşatmaq üçün, qorumaq üçün və gəncləri bunun əsasında tərbiyə etmək üçün sizin nazirliyinizin üzərinə böyük vəzifələr düşür".

Prezident vurğulayıb ki, idman sahəsində tərbiyə məsələlərinə də çox ciddi diqqət yetirmək lazımdır. Eyni zamanda, idman sahəsində buraxılan nöqsanlar da ciddi araşdırılmalıdır, ciddi təhlil aparılmalıdır: "Xüsusilə Olimpiya Oyunlarına hazırlıq dövründə bəzi federasiyalarda işlər qeyri-qənaətbəxş olub. Deməli, məşq prosesinə, təlim-məşq toplanışlarına xüsusi diqqət verilməlidir. Onu da nəzərə almalıyıq ki, son Olimpiya Oyunlarında medallar qazanmış idmançılarımız bizim təcrübəli idmançılardır. Demək olar ki, veteran idmançılardır. Onların arasında gənc nəslin nümayəndələri yoxdur və bu, çox ciddi təhlil edilməlidir. Necə ola bilər ki, nəsillər arasında artıq belə bir ara, elə bil ki, məsafə yaranır. Son illərdə bütün bölgələrdə idman obyektlərinin tikintisi geniş vüsət alıb, təkcə bölgələrdə 50-yə yaxın idman-olimpiya kompleksimiz fəaliyyət göstərir. Onların fəaliyyəti ciddi təftiş edilməlidir, orada məşq prosesi nə səviyyədədir, uşaqlar, yeniyetmələr idman bölmələrinə gəlirmi, gəlmirmi, idmanla məşğul olmaq üçün şərait nə dərəcədədir?".

Şübhəsiz, dövlət başçısının yeni nazir qarşısında qoyduğu tələblər həm də cəmiyyət üçün çağırışdır, ən prioritet vəzifələrdən biridir. Biz Vətən müharibəsində Azərbaycan gəncliyinin qəhrəmanlığını gördük, Vətənə bağlılığının şahidi olduq. Bu, ölkəmizdə gənclərlə bağlı aparılan siyasətin məntiqi nəticəsidir. Azərbaycan gənclərinin döyüş meydanındakı qəhrəmanlığı dünyada örnək kimi göstərilir.

**"İslahatçı Gənclər" İctimai Birliyinin sədri Fərid Şahbazlı "Şərq"ə açıqlamasında bildirib ki, dövlət gənclər siyasətinin mahiyyətində müasir, intellektual, eyni zamanda milli-mənəvi dəyərlərə, dövlətçilik prinsiplərinə bağlı Azərbaycan gəncliyi yetişdirmək dayanır. Gənc fəalın sözlərinə görə, dövlət gənclər siyasəti uzun illərdir məhz bu istiqamətdə həyata keçirilir:** "Ölkə başçısı yeni gənclər və idman nazirini qəbul edərkən bu məsələyə xüsusi diqqət yönəltdi. Azərbaycan tarixində baş verən çoxsaylı hadisələr, o cümlədən Vətən müharibəsindəki şanlı Zəfərimiz gəncliyin milli və vətənpərvərlik ruhunda yetişməsinin nə qədər vacib olduğu reallığını ortaya çıxartdı. Dövlət başçısının qeyd etdiyi kimi gənclərimizi yad təsirlərə salan, onlardan öz təxribat məqsədləri üçün istifadə edən yerli və xarici qüvvələr hər zaman olub. Onların əsas məqsədi Azərbaycan gəncliyini milli-mənəvi dəyərlərdən, Vətənə, dövlətə sədaqət ruhundan yayındıraraq özlərinin çirkin əməllərinə alət etməkdir. Lakin Azərbaycanda aparılan gənclər siyasəti buna böyük ölçüdə mane olur. Ermənilərin münaqişənin həllini uzatmaqda məqsədləri də Qarabağı gənc nəslə unutdurmaq idi. Ancaq gənclik milli-vətənpərvərlik ruhunda yetişdiyi üçün düşmən öz məqsədinə nail ola bilmədi".

**F.Şahbazlı bəyan edib ki, gənclər həm ön, həm də arxa cəbhənin əsgəri oldular, böyük qəhrəmanlıqlar göstərdilər:** "O baxımdan dövlət başçısının gənclərin milli ruhda tərbiyəsinə diqqət çəkməsi çox-çox önəmlidir. Təhsil məsələsi də çox aktualdır. Deyə bilmərik ki, bu sahədəki bütün problemlər öz həllini tapıb. Görüləcək çox iş var. Bir məqamı yaddan çıxartmamalıyıq ki, müasir dövrdə təhsilsiz gənclərin ölkədə və dünya miqyasında hansısa uğur əldə etməsi qeyri-mümkündür. Dünya sürətlə inkişaf edir, yeni trendlər meydana çıxır. Bizim gənclik də dünya ilə ayaqlaşmağı bacarmalıdır. Təhsil və milli ruh Azərbaycan gəncliyinin inkişafı üçün yol xəritəsi rolunu oynayır".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# "Daha Səndən sonra su içmək olmur"

## Akif Əhmədgil: "Biz kişilər beləyik, qadının qədrini onu itirəndən sonra bilirik"



**Dəyərli şairimiz Akif Əhmədgil bir şeirini paylaşdı - "Daha Səndən sonra su içmək olmur", üyərimizin başı göynədi. Ömür-gün yoldaşına ithaf edib bu şeiri. Avqust ayında əcəlin ayırdığı Rəsmiyyə xanıma. Yayın əvvəlində Akif bəylə söhbətləşəndə demişdi ki, həyat yoldaşı kimya terapiyası alır. Elə o günlərdə Milli Onkologiya Mərkəzini də yaxşıca "yıxıb-sürümüşdü".**

Avqustda isə Rəsmiyyə xanımın həyatdan köçdüyünü bildik. Demək, qızmar günlərdə Akif bəy həyat yoldaşının ağrıları ilə baş-başaymış. O günlərdə nə çəkdiyini, ümumiyyətlə, həyat yoldaşına münasibətini yazdığı bu cümlələr və bu şeir güzgü kimi göstərir:

**Daha Səndən sonra su içmək olmur**

Onkoloji xəstəlikdən əziyyət çəkən ömür-gün yoldaşım Rəsmiyyə Əhmədovaya həkim hər kimyaterapiyadan sonra gündə ən az 3-4 litr su içməyi məsləhət görmüşdü. Üstəlik qış aylarında bunun necə məşəqqətli bir iş olduğunu xəstələr və xəstə yaxınları yaxşı bilir. Oğlumuz Tamerlanın "Rembo Mama" deyə əzizlədiyi Rəsmiyyə xanım bu ağrı-acılara bir il dörd ay tab gətirə bildi. Onu Bakının yaxınlığındakı Sulutəpə deyilən yerdə torpağa taşırdıq. Hərdən fikirləşirəm, görəsən, nədən Sulutəpə?!. Bəlkə həkimin dediyindən az su vermişik.. Bəlkə...

**Həkim su demişdi, dərman bir yana,**
**Sağalmaq olurmu su içmək ilə?..**
**Sənə su gətirim Sulutəpədən...**
**Daha Səndən sonra su içmək olmur...**
**Bir az havalıyam,**
**bir az deyingən,**
**Sən indi hardasan, mən haralıyam?...**
**Deyirdin, oğluma qız tapmalıyam,**
**Daha Səndən sonra qız seçmək olmur....**
**Bir az aralıdır kiçik oğlumuz,**
**Bir az yaxındadır böyük oğlumuz...**
**Yarımçıq qaldımı ömür yolumuz,**
**Daha Səndən sonra yol keçmək olmur...**
**Yollar qəzalıdır, yollar xətalı.**
**Ev-eşik qurmuşdun alın təriylə,**
**Ömür sürğün yeri, ev sürğün yeri.**
**Nə bir gələnimiz, gedənimiz var,**
**Ağzı günə qalıb bomboş otaqlar,**
**Bizi yetım qoyub gedəndən bəri**
**Evdə oturmağa yer tapmaq olmur..**
**Qurudu eyvanda əkdiyin güllər,**
**Qızıl yel apardı qızılgülləri**
**Bizi yetim qoyub gedəndən bəri...**
**Daha Səndən sonra yaşamırıq ki....**
**Daha Səndən sonra ömür sürürük,**
**Ömür sürgün yeri, Yer sürgün yeri..**

*Avqust 2021.*

Bu şeirdən sonra Akif bəyə zəng etmək, çətin məsələdi. Nə deyəsən?.. Deyəsən ki, Akif bəy, gəlin, başdan tarixçənizi danışın, hansı yollardan keçmisiniz, hansı məhrumiyyətlərə dözmüsünüz, bu itkini necə yaşaya bilirsiniz?.. Yenə də. Müsahib kimi xasiyyətinə az-çox bələdik deyə, söhbətdən yayınmayacağını bilirik. Və ağrılarını paylaşmasına cəhd edirik. Artıq bu, neçənci müsahibdir ki, zəng edirsən, "həkimdəyəm", deyir. Ay başına dönüm, millət həkimlərdə qalıb, nədi?!

**- Akif bəy, xeyir ola həkimə getmisiniz...**

- Nə xeyir olacaq, onurğa sütunumda yırtıq əmələ gəlib. Həkim deyir, əsəbdəndi. 6 ay müalicə almalısan. Deyirəm, sənin başın "xarabdı", nədi, nə 6 ay!..

**- Həkim neyləsin, bilmirsiniz ki, müalicə almalısınız, həm də davamlı. Yırtıq belədi...**

- Orası düzdü ey. Müalicə kursu alırdım. Bu gün sonuncu gün idi. Dedim, əşşi, cəhənnəmə, bu gün də gedim qurtarsın. Amma yaxşılaşmışam.

**- Görürsünüz. Deməli, müalicə lazımdı... Akif bəy, mən sizə həyat yoldaşınızın xatirəsini yad etmək üçün zəng etmişəm... Şeir həsr etmisiniz Rəsmiyyə xanıma. Təsirlidi...**

- Hə... Görünür, qələm əhliyəm deyə, bir az da ağrılı keçirirəm bu itkini.

**- Xatırlayıram, yayda sizinlə danışanda demişdiniz ki, yoldaşınız xəstədi, müalicə alır. Nəydi xəstəliyi?**



- Qida borusunun xərçəngi...

**- Neçə müddətdi xəstə idi?**

- Biz bir az gec bildik xəstəliyə tutulduğunu. Yemək yeyəndə deyirdi, udqunanda əziyyət çəkir. Mən də deyirdim, yəqin boğazın ağrıyır, isti çay içmisən, boğazını yandırıb, udqunanda ağrıdır. Məsuliyyətsiz yanaşdıq... Mən məsuliyyətsizlik etdim. Gərək tez aparaydım həkimə. Hardasa 3 ay ləngimişik. İndi fikirləşirəm ki, hayıf deyil, evlənib boşanmaq?! Az bağlanırsan, ayrılanda da az əziyyət çəkirsən, ya heç çəkmirsən. Biz kişilər beləyik, qadının qədrini onu itirəndən sonra bilirik...

**- Qohumunuz idi, özünüz bəyənmişdiniz, tanışlığınız necə olmuşdu?**

- Yox, qohum deyildi. Allah eləməsin, qohumla evlənəsən...

**- Niyə?**

- Necə yəni niyə. Uşaqlar 90 faiz xəstə olur. Oğlum həkimdi, o da deyir, qohum evlilikləri məsləhət deyil. Öz kəndimizin qızı idi. Qardaşı ilə dost idim. Kənddə olanda təsadüfən gördüm, xoşum gəldi, ürəyinə yatdı. Anama dedim, elçi gedin...

**- Ananız razı oldu, başqa namizədi yox idi ki, sizin üçün?**

- Nə deyəsidi, yazıq anam. Mən bir az gec evlənmişəm. Analar oğullarına həmişə qız axtarır. Anam da elə. Mən də istəmirdim evlənmək. Bir müddət Moskvada oxumuşam axı. Anam qorxurdu ki, birdən rus qızıyla evlənərəm.

**- Sizə deyirdimi ki, bax ha, birdən rus qızı gətirərsən özünlə.**

- Hə, deyirdi, birdən ilişib qalarsan. Kəndin içinə çıxa bilmərəm.

**- Elçi gedən kimi verdilər?**

- Yox, vermədilər. Dedilər, fikirləşəcəyik.

**- Hirsləndiniz?**

- Yox, nəyə hirslənəcəm: Qız qapısı, şah qapısıdı. Bir az pis oldum ki, niyə vermirlər. Anama dedim, gör neynirsən. Sonra nişanlandıq.

**- Rəsmiyyə xanımın da sizə könlü vardımı?**

- Yəqin vardı ki, razılaşdı mənimlə evlənməyə. APİ-nin (Azərbaycan Pedaqoji Universiteti - red.) sonuncu kursunda oxuyurdu, evləndik. Aramızda 5 yaş yarım fərq vardı.

**- Və ailə həyatınız başladı. Xasiyyəti necə idi?**

- Çox yaxşı adam idi. Xasiyyəti də yaxşıydı. İndi fikirləşirəm ki, o bu qədər çətinliyə necə dözüb?

**- Nə mənada çətinlik? Maddi baxımdan?**

- Hə də. Nə maaş alırdım ki?! "Ulduz" jurnalında işləyirdim. 20-30 dollar maaş alırdım. Sonra Elmlər Akademiyasında işlədim. Milli Məclisdə işlədim. Bir "axmaqlıq" elədim, ordan çıxdım... Hər vəziyyətə qane olurdu. Özü də Pedaqoji Texnikumda dərs deyirdi. Onun da maaşı az idi. Amma bir dəfə də məndən nəsə tələbi olmadı. Ümumiyyətlə, düşünürəm ki, boşanmaların 99 faizi maddiyyatla bağlıdır.

*"Qadınların işi həqiqətən çox olurmuş. İndi fikirləşirəm ki, niyə mən ona kömək etməmişəm? Bəlkə haranısa mən süpürməliydim?! Çox şeyə indi fərqli baxıram. Gərək sevgini hər gün göstərəsən"*

**- Niyə ki?! Rəsmiyyə xanım dözüb.**

- Elələri azdı.

**- Siz nədənsə narası qalırdınız?**

- Mənə elə gəlirdi ki, o, övladlarını məndən çox istəyir. Əslində bu, belə də olmalıdır. Ana övladını çox istəyər də. Amma biz kişilər bunu gec başa düşürük. Elə bilirik ki, yaddan çıxmışıq. Bu qədər işin-gücün arasında özümüzə diqqət istəyirik. İndi başa düşürəm ki, demə, qadınların işi həqiqətən çox olurmuş. İndi fikirləşirəm ki, niyə mən ona kömək etməmişəm? Bəlkə haranısa mən süpürməliydim?! Çox şeyə indi fərqli baxıram. Gərək sevgini hər gün göstərəsən. Biz hərdən-bir, yadımıza düşəndə göstəririk, deyirik.

**- Evlənəndən sonra kirayədə qalırdınız?**

- Yox, evim vardı. "Gənclik" jurnalında işləyəndə Gənclər Təşkilatının birinci katibi vardı - Sahib Ələkbərov, mənə 1 otaqlı ev vermişdi. Sonra da mərhum Heydər Əliyev 4 otaqlı ev bağışladı. Yeni Yasamalda.

**- Niyə məhz sizə? Nə bildi ki, ev şəraitiniz yaxşı deyil?**

- O vaxt Yazıçıların Qurultayı oldu, şairlərlə, yazıçılarla görüş keçirildi... Mənzillə bağlı Anarın təqdimatı olmuşdu, siyahını o vermişdi.

*(Könlü açılsın deyə zarafata salıb, Şuşa söhbətini xatırladım)*



**- Aa... Daha niyə inciyirsiniz Anar müəllimdən ki, sizi nizə Şuşaya aparmayıb...**

*(Güldü...)*

- Yox, incimirəm. Anar gözəl insandı. Mən dedim də ötən dəfə, adımı siyahıya salıb, sonra çıxarmaları təsir etdi mənə.

*("Siyasi" məsələləri kənara itələyib, ruhi məqamlara qayıtdıq)*

**- Akif bəy, Rəsmiyyə xanımın vəfatından sonra bir şeir yazdınız, sosial şəbəkədə paylaşdınız. Təsirli idi... Sağlığında da şeir həsr etmişdiniz xanımınıza?**

- Çox şeirlər yazmışam. Biri məşhurdu "Qara şanı, qara kişmiş, qara tut". Qarayanız idi axı...

**- Bəyənirdi o şeirləri, razı qalırdı?**

- Bəli. Şeirdən başı çıxırdı. Bəzən deyirdi ki, hamıya şeir yazırsan, mənə niyə yazmırsan?

**- Yəni kimə yazmışdınız ki?**

- Olub bəzi şeirlər, qadınlara... Mənim bir şeirim var, "Dəniz yaman şirindi". Dostlarım bilir, kimə həsr edilib. 17-18 yaşında yazmışam o şeiri. Nə bilim, gənclik idi...

**- Kimya terapiyası aldığı vaxtlarda sizdən bir istəyi, bəlkə vəsiyyəti olmadı ki?**

- Yox, heç nə demədi. Mən inanmırdım bunun son olacağına. Həkim səhlənkarlığı da çox oldu. Qida borusuyla yanaşı nəfəs borusunu da müalicə etməyə başladılar ki, bu orqanlar bir-birinə yaxındır. Bir neçə ay da orda itirdik...

**- 2 oğlunuz var...**

- Bəli. Kiçik oğlum evləndi. Yaxşı ki, onun toyunu gördü.

**- Dediniz, Yeni Yasamalda yaşayırsınız...**

- Hə, Onkoloji Mərkəzin yanında.

**- Sizin üçün ağır olar, hər gün, hər saat o binayla üz-üzə gəlmək...**

- Əşşi, ora zülümxanadı. Adamlar da zülüm çəkir. Ümumiyyətlə, Azərbaycanda müalicə prosesi düzgün getmir.

**Söhbətimizin sonunda Akif bəydən həyat yoldaşının fotosunu bizə göndərməyi xahiş etdim. "Göndərərəm", dedi. "Ailə şəkliniz olsun. Cavanlıq şəkli olsa, lap yaxşı", deyəndə cavabı bu oldu:**

- O həmişə cavandı!..

**Söhbətləşdi: Məlahət Rzayeva**

# Qəzaların qurbanları daha çox piyadalardır

## Təhlükəli yollarda, keçidlərdə hər kəs məsuliyyətli olmalıdır



**”Bakı şəhəri üzrə qeydə alınan qəzaların 56,4 faizini piyada vurma hadisələri təşkil edib ki, bu da 80 nəfərin həyatına son qoyub, 107 nəfərin yaralanmasına səbəb olub. Ümumilikdə piyada vurma hadisələrinin 90 faizdən çoxu məhz piyada keçidlərindən kənarda baş verib”.**

Bu, Bakı şəhəri Baş Dövlət Yol Polisi İdarəsinin açıqladığı rəqəmlərdir. BDYP payız-qış mövsümünün yaxınlaşmasını nəzərə alaraq piyadaları yol-hərəkəti qaydalarına əməl etməyə çağırıb. Xəbərdarlıqda deyilir ki, aparılan təhlillər nəticəsində bu ilin 8 ayı ərzində respublika ərazisində baş verən yol-nəqliyyat hadisələrinin 41 faizini piyadaların vurulmasının təşkil etdiyi qəzalarda 190 nəfərin həlak olduğu, 267 nəfərinsə xəsarət aldığı müəyyənləşib. BDYP qeyd edir ki, piyadalar onların təqsiri üzündən baş vermiş istənilən yol-nəqliyyat hadisəsi zamanı maksimum 20 və ya 40 manat məbləğində cərimə olunacaqlarını düşünür, lakin yanlışlığa yol verirlər. ”Hərəkət iştirakçılarının, xüsusilə də piyadaların diqqətinə çatdırmaq istərdik ki, qanunvericiliyin tələbinə əsasən əgər hər hansı yol qəzası piyadaların yol hərəkəti qaydalarını pozmaları nəticəsində ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına, yaxud onun ölümünə səbəb olarsa, artıq o, cinayət məsuliyyətinə cəlb olunacaq”.

Xəbərdarlıqda piyada keçidlərindən düzgün istifadə olunmadığı da qeyd edilir: ”Bir qrup insan hansısa yol sahəsində piyada keçidlərinin olmamasından şikayət etdiyi halda, digər bir ərazidə mövcud piyada keçidlərinin demək olar, istifadəsiz qaldığının şahidi oluruq. Bu isə onu deməyə əsas verir ki, piyadaların yol hərəkəti qaydalarına riayət etməsi yalnız hərəkətin təşkili, infrastruktur və digər amillərə deyil, onların şəxsi məsuliyyət hissinə, yol hərəkəti mədəniyyətinə və ictimai davranış vərdişlərinə daha çox bağlıdır”.

**Sabiq polis rəisi Mahmud Hacıyev ”Şərq”ə açıqlamasında piyadaların yol-hərəkəti qaydalarına birmənalı şəkildə əməl etməli olduğunu dedi:**

- Piyada yolu ona məxsus yerdən keçməlidir. İşıqfor olmayan yerdə yerüstü piyada keçidi - ”zebrlər” olur. Bəzən görürsən ki, piyadalar yerüstü keçid qaydalarına da əməl etmir. Yol infrastrukturu daim yenilənən sahədir. Şəhərdə müxtəlif yerlərə yeni işıqforlar qoyulub. Mən ikisini görmüşəm; biri Ceyhun Hacıbəyli küçəsində, ”Dədə Qorqud” parkının qarşısında, biri də Xarici Dillər Universitetinin qarşısında. Digər ərazilərdə də qoyulur. Ya da yerüstü piyada keçidləri yaradılır. Bəli, bəzi yollarda ehtiyac olduğu halda nə işıqfor var, nə də yeraltı, yerüstü piyada keçidi. Belə yerlərdə piyadalar yolu keçməkdə əziyyət çəkir. Amma işıqforların, keçidlərin quraşdırılması asan məsələ deyil. Bu məsələ Bakı Şəhər İcra Hakimiyyəti ilə müzakirə olunur, məqsədəuyğunluq təsdiqlənəndə işə başlanır. Amma şəhər infrastrukturuna, vətəndaşların təhlükəsizliyinə cavabdeh qurumlar bu məsələlərlə mütəmadi surətdə, ciddi məşğul olmalıdır ki, piyadaların təhlükəsizliyinin təmini üçün işlər görülsün. Bu da acı həqiqətdir ki, şəhərin mərkəzinə daha çox fikir verilir, nəinki kənarlara.

**M.Hacıyev sürücüləri də qınadı:**

- Bunu da etiraf etməliyik ki, sürücü mədəniyyəti aşağıdır. ”Zebrin” üstündə də piyada vurulub. Yol qəzaları ilə bağlı əlbəttə ki, tədqiqat aparılır. Piyada yol hərəkəti qaydasını pozmayıb ki, sürücü sürət həddini aşmayıb ki Çünki sürət həddi icazə veriləndən yüksək olanda qarşıya çıxan qəfil maneə zamanı sürücü avtomobili vaxtında dayandıra bilmir. Bəs nəyə görə sürücülərə də xəbərdarlıq edilir ki, sürət həddini aşmayın, ara məsafəni gözləyin?! Bütün bunlar DYP-nin tədqiqat şöbəsi tərəfindən araşdırılır. Sürücü mədəniyyəti isə başqa məsələdir. Sürücü görür ki, 5 nəfər yolu keçməyə çalışır, avtomobil axını səbəbindən keçə bilmirlər. Nə olar, maşının sürətini azaltsın, piyadaya yol versin. Sürücülərdə də mədəniyyət olmalıdır. ”Yol mənimdir”, deyib şütüyüb getmək olmaz. Xüsusən təhlükəli yollarda, piyadalar üçün münasib keçid olmayan yollarda sürücülər daha məsuliyyətli və mədəni olmalıdırlar.

**Məlahət Rzayeva**

## TƏKRAR HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Neftçala rayon İcra Şöbəsinin 30.06.2021-ci il tarixli, 059 saylı sifarişi ilə, Neftçala şəhəri, H.Əliyev pr., ev 27, mənzil 26-da yerləşən 4 otaqlı mənzilə dair 10 sentyabr 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin mənzil satış qiyməti olan 31.500 (otuz bir min beş yüz) manatdan 20% aşağı, yəni 25.200 (iyirmi beş min iki yüz) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 22 sentyabr 2021-ci il, 11:00 *(növbəlik qaydasında)* tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 1.260 (bir min iki yüz altmış) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

*(Əlavə olaraq ”Qeyd”ə bax).*

----------------------------------------

Quba rayon İcra Şöbəsinin 18.08.2021-ci il tarixli, 35040/21-03 saylı sifarişi ilə, Quba rayonu, Qəçrəş kəndində yerləşən 0.065 ha torpaq sahəsinə dair 10 sentyabr 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin torpaq sahəsi satış qiyməti olan 23.400 (iyirmi üç min dörd yüz) manatdan 20% aşağı, yəni 18.720 (on səkkiz min yeddi yüz iyirmi) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 22 sentyabr 2021-ci il, 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 936 (doqquz yüz otuz altı) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

*(Əlavə olaraq ”Qeyd”ə bax).*

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

**Hərracın təşkilatçısı ”Əmlak Hərrac Mərkəzi” MMC**

*Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.*

*Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com*

*rəsmi internet saytı: e-herrac.com*


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

-MÜHASİBAT (2 AY)

-Mobil telefonların təmiri (3 ay)

-KOMPYUTER (1-3 AY)

-KOSMETOLOGİYA və VİZAj (3 AY)

-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)

-Dizayn (3-6ay)

-Masaj (3 ay)

-Biçmə - Tikiş (3 ay)

-Məktəb Psixologiyası (12 ay)

Tel: (012) 489-08-84

Mob: (070) 241-28-67

www.az-baku.com


## HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 06.09.2021-ci il tarixli (09.09.2021), 13166-6152/2019-15-27 saylı sifarişi ilə 2 ədəd, ümumi çəkisi 14,5 qram olan, ilkin satış dəyəri 783 (yeddi yüz səksən üç) manat məbləğində müəyyənləşdirilən boyunbağı (əyarı 583) və 1 ədəd çəkisi 8,6 qram olan, ilkin satış dəyəri 464,4 (dörd yüz altmış dörd manat qırx qəpik) manat məbləğində müəyyənləşdirilən üzük (əyarı 583) açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 22 sentyabr 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti ümumilikdə 1.247,4 (min iki yüz qırx yeddi manat qırx qəpik) manat məbləğində müəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 10%-i, yəni ümumilikdə 125 (yüz iyirmi beş) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

*(Əlavə olaraq ”Qeyd”ə bax).*

Bakı şəhəri Binəqədi rayon İcra Şöbəsinin 17/68-193601-16 saylı (09.09.2021), 08.09.2021-ci il tarixli sifarişi ilə 450 kv.m olan qeyri yaşayış sahəsinin, yəni Binəqədi rayonu Xocasən bələdiyyəsinin balansında olan 103 nömrəli məktəb (birmərtəbəli tikili) açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 22 sentyabr 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti 90.000 (doxsan min) manat məbləğində müəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5 %-i, yəni 4.500 (dörd min beş yüz) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

*(Əlavə olaraq ”Qeyd”ə bax).*

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) saat qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti.

**Hərracın təşkilatçısı ”Əmlak Hərrac Mərkəzi” MMC**

*Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.*

*Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com*

*rəsmi internet saytı: e-herrac.com*

## Elanlar

Fövqəladə Hallar Nazirliyi tərəfindən Cəbiyev Fərahim Rahim oğlunun adına verilmiş 1005790A nömrəli xidməti iş vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ağsu rayon Bozavand bələdiyyəsinə məxsus möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

Həsənov Rafik Hacı oğlunun İnterservisdən olan № 0682, 10.02.2006-cı il tarixli müqavilə, adına olan torpaq sənədi itdiyi üçün etibarsız sayılır.

## TƏKRAR HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELAN

Ləğv prosesində olan ”Standard Insurance” Sığorta Şirkətinin Ləgvetmə komissiyasının sifarişi ilə ləğvetmədə olan Sığorta Şirkətinə məxsus rekonstruksiya işlərindən sonra birləşdirilmiş ümumilikdə 270,5 m2 4 (dörd) mənzilə Bakı şəhəri, Nəsimi rayonu, Mirzə Ağa Əliyev küçəsi , ev 251, mənzil 20 (ümumi sahəsi 56.6 m2), Bakı şəhəri, Nəsimi rayonu, Mirzə Ağa Əliyev küçəsi , ev 251, mənzil 49 (ümumi sahəsi 46.5 m2), Bakı şəhəri, Nəsimi rayonu, Mirzə Ağa Əliyev küçəsi , ev 251, mənzil 50 (ümumi sahəsi 52.7 m2) və Bakı şəhəri, Nəsimi rayonu, Şəmsi Bədəlbəyli küçəsi , ev 96, mənzil 65 (ümumi sahəsi 114.7 m2) dair 09 sentyabr 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin rekonstruksiya işlərindən sonra birləşdirilmiş ümumilikdə 270,5 m2 olan 4 (dörd) mənzil onların ümumilikdə satış qiyməti olan 1.750.000 (bir milyon yeddi yüz əlli min) manatdan 10% aşağı olmaqla, yəni 1.575.000 (bir milyon beş yüz yetmiş beş min ) manata təkrar (II) açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 21 sentyabr saat 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni 78.750 (yetmiş səkkiz min yeddi yüz əlli) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac sifarişçisinin aşağıda göstərilən hesablaşma hesabına ödənilməlidir.

Adı: Ləğv prosesində olan ASC ”Standard Insurance” Sığorta Şirkəti

Hesab №: AZ52PAHA35090AZNHC0190000581

VÖEN: 1300115641

Bank Adı: Paşa Bank ASC

Kodu: 505141

VÖEN: 1700767721

Müxbir hesab:

AZ82NABZ01350100000000071944

S.W.I.F.T. PAHAAZ22

Hərrac addımı satış qiymətinin 1%-dən çox olmamaqla təyin edilir.

*(Əlavə olaraq ”Qeyd”ə bax)*

Ləğv prosesində olan ”Standard Insurance” Sığorta Şirkətinin Ləgvetmə komissiyasının sifarişi ilə ləğvetmədə olan şirkətə məxsus aşağıdakı cədvəldə göstərilən rəsm əsərlərinə dair 09 sentyabr 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin rəsm əsərləri onların ayrılıqda ilkin satış qiyməti olan 1.500 manatdan 10% aşağı olmaqla, yəni 1350 (min üç yüz əlli) manata təkrar (II) açıq hərraca çıxarılmışdır.

| S/S | Barcode | Hərracın predmeti | Rəsm əsərinin müəllifinin adı və soyadı | Ölçüsü | İlkin satış dəyəri | Təkrar hərracda satış qiyməti | Behin məbləği |
|---|---|---|---|---|---|---|---|
| 1 | 1800 | Şəkil "Teiptix Dəniz mənzərəsi" | Müseib Əmirov | 65x196-1-1 | 1500 | 1350 | 67,5 |
| 2 | 1801 | Şəkil "Teiptix Dəniz mənzərəsi" | Müseib Əmirov | 65x196-1-2 | 1500 | 1350 | 67,5 |
| 3 | 1802 | Şəkil "Teiptix Dəniz mənzərəsi" | Müseib Əmirov | 65x196-1-3 | 1500 | 1350 | 67,5 |
| 6 | 1805 | Şəkil "Köhnə Bakı" | Şübhan Məmmədov | 80x140 | 1500 | 1350 | 67,5 |
| 18 | 1817 | Şəkil "Mənim Bakı" | Sübhan Məmmədov | 60x100.5 | 1500 | 1350 | 67,5 |

Təkrar hərrac 21 sentyabr saat 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni 67,5 (altmış yeddi manat əlli qəpik) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac sifarişçisinin yuxarıda göstərilən hesablaşma hesabına ödənilməlidir.

Hərrac addımı satış qiymətinin 1%-dən çox olmamaqla təyin edilir.

*(Əlavə olaraq ”Qeyd”ə bax)*

**QEYD:**

Yuxarıda göstərilən hərraclarda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır:

** Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq);*

** Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd;*

** Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;*

** Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;*

** Hərracın iştirakçılarına onların hərracda iştirakı statusunu əldə etməsini müəyyənləşdirən bilet verilir.*

** Şəxs hərracda iştirak etmək üçün ərizənin qəbulu başa çatanadək təşkilatçıya yazılı formada müraciət etməklə, öz ərizəsini geri götürə bilər;*

** Ərizənin geri götürülməsi hərracın şərtlərinə uyğun olduqda, ödənilmiş beh məbləği 2 (iki) iş günü ərzində geri qaytarılır.*

** Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin behi geri qaytarılır;*

** Hərracda iştirak etmək hüququ əldə etmiş şəxslərə ”sifarişçi” və (ya) ”təşkilatçı” tərəfindən satışa çıxarılan əmlakla tanış olmaq imkanı yaradılır;*

** Qalib gəlmiş şəxs qanunvericiliyə uyğun tərtib edilmiş protokolu hər hansı üzrlü səbəbi olmadan imzaladıqda, yaxud əmlakın dəyərini ödəməkdən imtina etdikdə verilən beh geri qaytarılmır.*

** Hərracın qalibi ilə alqı-satqı imzalandıqdan sonra əmlakın satış dəyəri qalib alıcı tərəfindən sifarişçinin hesabına köçürülməlidir.*

**Hərracın təşkilatçısı ”Əmlak Hərrac Mərkəzi” MMC**

*Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.*

*Tel: (+99412) 539-47-22; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com*

*rəsmi internet saytı: e-herrac.com*

*Sifarişçinin əlaqə telefonları: 050-253-33-05 ; 055-213-51-35*


**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı, Samirə Ərəblinski**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev**

**Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
**SWIFT BIK AII-BAZ2X h/h**
**AZ17AIIB38070019441100466111**
**Kod 200112 M/H**
**AZ37NABZ01350100000000001944**
**VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1673**



# 5 yaşlı uşaq anasını öldürdü

**ABŞ-da Mikelle Cox adlı 38 yaşlı qadın 5 yaşlı oğlunun evdəki silahı ona uzadaraq atəş açması nəticəsində sinəsindən yaralanıb.**

“Şərq” “Haberler.com”a istinadən bildirir ki, üç uşağı və sevgilisi evdə olarkən baş verən hadisədən sonra qadının sevgilisi təcili yardım çağırıb.

Xəstəxanaya çatdırılan qadını bütün müdaxilələrə baxmayaraq, xilas etmək mümkün olmayıb. Polis araşdırma apardıqdan sonra hansısa qətl olmadığını və hadisənin 5 yaşlı uşaq tərəfindən təsadüfən törədildiyini qeyd edib.

**Yeganə**

# "Yarım saat oxumaqla acından ölməyəcəksiniz"

## Müğənni həmkarlarını qazi toylarında iştirak etməyə çağırdı



**”Hörmətli sənət yoldaşlarım, 2 il toy olmadı, acından ölmədik. İki ay Məhərrəmlik olur, yenə ruzini Allah yetirir. Yeni sezonda qazi toyları var, xahiş edirəm, bu təşəbbüsə qoşulun. Mən təkəm, bir günə 6-7 qazi toyu yazılır, üçünə ancaq gedə bilirəm. Çünki ayrı-ayrı yerlərdədir, məsafə uzaqdır. Ən azından mənim gedə bilmədiklərimə siz yollanın. Yarım saat oxumaqla acından ölməyəcəksiniz”.**

”Şərq” xəbər verir ki, bu sözləri instaqram hesabında müğənni Nüşabə Musayeva yazıb. O, həmkarlarına müraciət edərək bunları söyləyib:

”Bizim yolumuzda sağlamlıqlarını, canlarını qoyublar. Bu borcumuzdur. Onların borclarını heç vaxt qaytara bilmərik. Ən azından onlara bir stimul verərik. Qazi olmaqları ilə fəxr edərlər. Müharibə zamanı Vətənim, igidim, əsgərim, millətim, ordum, şəhidim, torpağım, deyə bağırıb, paylaşımlar edirdiniz. Bəs vətənpərvərliyiniz necə oldu? Elə sosial şəbəkələrdə paylaşımlardamı vətənpərvərsiniz? Yoxsa borcunuzu, hərbi geyimdə klip çəkdirməklə ödədiyinizi düşündünüz? Onlara kliplər, paylaşımlar yox, özəl günlərində yanlarında olmağınız lazımdır. Bütün ifaçıları bu gözəl təşəbbüsə qoşulmağa dəvət edirəm. Gözəllik, gül salonları və məclislərlə əlaqəli digər sahələrdə çalışanlara səslənirəm. Qazilərimizə, Vətən oğullarımıza, şəhid ailələrimizin balalarının toy günlərində diqqət göstərin. Qazilərimiz də canlı şəhid sayılırlar. Biz onların sayəsində rahat yaşayırıq. Nə tez unutdunuz?”.



# İki dəfə ölümdən döndü

## Hamiləlikdə koronavirus qadına cəhənnəm yaşatdı



**29 həftəlik hamiləliyində koronavirusa tutulan Duygu Yetgin Akgün erkən doğuşla İpek adlı qız uşağı dünyaya gətirib. Gənc ana ilk dəfə körpəsini tibb bacılarının planşetindən gələn video zənglə izləyib. Anadolu Universiteti Turizm Fakültəsinin müəllimi Duygu Yetgin Akgünün dünyaya gətirdiyi körpənin çəkisi 1 kilo 300 qramdır.**

Peyvənd olunmadığı üçün çox ağır bir vəziyyətə düşdüyünü deyən Duygu koronavirusa qarşı peyvəndlənmənin həqiqətən çox vacib olduğunu bildirib: ”Peyvənd olunsaydım, inanın, çox yüngül keçirərdim. 17 gün reanimasiyada qaldım. Bu ağrını təsvir etməyə söz yoxdur. Hələ də qızımı görməmişəm. Həyat yoldaşım da universitetdə işləyir. Səkkiz nəfər orada xəstələndi və peyvənd edildiklərindən onlara heç nə olmadı. Peyvənd olunmayan yalnız mən idim və heç bir ciddi xəstəliyim yox idi. İnanın ki, nəfəs ala bilmirdim. Həqiqətən də çox çətin bir prosesdən keçdim. Ölümdən düz iki dəfə qayıtdım. Hər kəsə məsləhətim odur ki, vaksin əleyhinə olmasın, çünki peyvənd çox vacibdir. Hələ də tam sağalmamışam, müalicəmi evdə davam etdirəcəm. İçmədiyim dərman qalmadı. Buradakı həkimlər, tibb bacıları və işçilər məni yenidən həyata qaytardılar”.



*Eskişehir Şəhər Xəstəxanası Baş Həkimi Dr. Yaşar Bildirici peyvəndlənmənin hamiləlik dövründə son dərəcə əhəmiyyətli olduğunu söyləyib*: ”Pandemiyanın başladığı gündən etibarən Eskişehir Şəhər Xəstəxanasında müalicə alan və ”Kovid”i pozitiv hamilə qadınların sayı 500-dür. İndiki halda COVİD-i pozitiv olan hamiləliklər yüksək risk qrupu hesab olunurlar. Elmi araşdırmalar bu səbəbdən körpə ölümünün və ana bətnində erkən doğum riskinin 2-3 dəfə artırdığını göstərir. Pandemiyanın başlanğıcında hamilə qadınların aşılanması ilə bağlı bəzi narahatlıqlar var idi, lakin son zamanlar elmi araşdırmalar hamiləlik dövründə vaksinlənmənin son dərəcə vacib olduğunu göstərir. Reanimasiya şöbəsində olan hamilələrin hamısı, o cümlədən xəstəxanaya yerləşdirilənlər mütləq peyvənd edilməlidir. Çünki bununla onlar həm özlərini, həm də körpələrini qorumuş olurlar”.

**Perinatologiya mütəxəssisi Dr.Zafer Tüm isə bildirib ki, hamilələrdə ”Covid-19” infeksiyası daha şiddətli olur:** ”Bu səbəbdən hamilə xəstələrimizi daha çox reanimasiya şöbəsinə yerləşdirirlər. Həmçinin, buna görə hamilələrdə vaxtından əvvəl doğuş riski artır. Dünyanın bütün ölkələri və Ümumdünya Səhiyyə Təşkilatı bütün hamilə qadınlara ”Covid-19” peyvəndini tövsiyə edir”.

**Aynurə Pənahqızı**

---

**Məlahət Rzayeva**





# Qubada üçəm doğulub

## Həkim-ginekoloq: “2-dən artıq körpənin olmasına analar sevinir, həkimlərsə yox”

**Quba Regional Perinatal Mərkəzində üçəm doğulub. ”Report”un məlumatına görə, Şabran şəhər sakini 19 yaşlı Qızılgül Zabitlinin dünyaya gətirdiyi körpələrdən ikisi qız (2 və 2,2 kq), biri isə oğlan (1,4 kq) uşağıdır. Həkimlər bildirib ki, hazırda uşaqlar sərbəst nəfəs alır, çəkiləri artır və laborator göstəriciləri yaxşılaşır: ”Onların yaxın günlərdə evə buraxılması nəzərdə tutulub”.**

”Əsasən əkizlər normal hamiləliklə dünyaya gəlir. 2-dən artıq - üçəmlər, dördəmlər adətən süni mayalanmanın nəticəsi olur”. Bu sözləri ”Şərq”ə açıqlamasında həkim-ginekoloq Fəxranə Hüseynzadə dedi. Ginekoloq



Fəxranə Hüseynzadə

qeyd etdi ki, 2-dən artıq körpənin olmasına analar sevinir, həkimlərsə yox:

- Bunun səbəbi 2-dən artıq dölün olduğu hamiləliyin ananın həyatı üçün risk daşımasıdır. Əkiz övlad, üçəm, dördəm, bəzən hətta bir hamiləlikdə daha artıq 5-6 körpənin dünyaya gəlməsinə analar sevinir. Həkimlərsə bu cür halları adətn sevmir, xoşlamır. Çünki bir neçə körpədən hansısa hamiləlik dövründə tələf olur. Ananın sağlamlığı üçün də təhlükə yaranır. Həkimlər daha çox ananın sağlamlığını düşünür. Heç indiyədək eşitmisinizmi ki, hamiləlik və ya doğuş zamanı ananın həyatına təhlükə yarandıqda, həkim ”körpəni istəyirsiniz, yoxsa ananı?” deyə sual etsin. Hər bir həkim üçün arzuolunmaz və hədsiz çətin, ağır belə bir durumda həkimlər ilk növbədə ananın həyatını xilas etməyə çalışır. Və ”körpə və ya ana” seçimi qarşısında qaldıqda ananı seçirlər. Biz həkimlər bu reallıqları və baş verə biləcək təhlükələri bilirik deyə, 2-dən artıq yumurta mayalanması hadisəsinə sevinmirik. Bu cür hamiləliklərdə problemlər çox olur. Analıq orqanlarının çoxsaylı dölləri daşımaq və dünyaya gətirmək imkanları məhduddur. Bəzən uşaqlıq orqanı bu cür hamiləlikləri başa çatdıra bilmir. Nəticədə erkən, vaxtından əvvəl doğuşlar, körpələrdən hansınınsa tələf olması baş verir. Həkimlər bəzən ana bətnindəki körpələrdən birini süni yolla tələf etmək məcburiyyətində qalır. Bu halda heç vaxt cinsə görə seçim aparılmır, ən zəif çəkiyə malik döl tələf edilir. Hamiləliyin 8-10-cu həftəsində. Yenə də ananın həyatına yaranmış təhlükənin aradan qalxması və digər döllərin normal dünyaya gəlməsi üçün. Bir sözlə, çoxdöllü hamiləliklər risklidir.

*Ginekoloq qeyd etdi ki, süni mayalanmaya sonsuzluq problemi ilə üzləşənlər müraciət edir. Bu zamansa, ehtiyat üçün bəri başdan 2-3-4 yumurta mayalandırılır ki, hansısa mayalanmasa, biri və ya ikisi mayalansın. Ona görə də süni mayalanmada 1, 2 və daha artıq körpənin dünyaya gəlməsi də gözləniləndir:*

- Bu körpələrin fərqli çəkidə dünyaya gəlməsi normal haldır. Körpədə başqa anomaliya yoxdursa, çəki azlığı problem deyil. Problem erkən doğulanlarla bağlı yaşanır. Bəzən belə körpələrdə müxtəlif beyin problemləri ortaya çıxır. Beyindaxili yüksək təzyiq, beyinə qansızma Problemli körpələr küvəzə yerləşdirilir, riskli müddəti keçirdikdən sonra adi şəraitdə saxlanılırlar. Çəkisi az körpənin böyüdükcə hansısa problemlə, hansısa xəstəliklə qarşılaşacağını düşünmək də əsassızdır. Qüsurlu körpələr genetik anomaliyalar nəticəsində dünyaya gəlir. İstər süni mayalanma olsun, istərsə də təbii hamiləlik, qadının yaş dövrü əsas göstəricidir. 35 yaşdan yuxarı qadınlarda problemli hamiləlik və qüsurlu körpələrin dünyaya gəlməsi riski ikiqat çoxdur. Məsələn, 35 yaşdan yuxarı qadınların dünyaya gətirdiyi körpələrdə son zamanlar DAUN sindromu müşahidə edilir. Problemlər yaşa görə yaranır, süni və ya təbii hamiləliyə görə deyil.

# Daha böyük təhlükə...

## İnternet günəş fırtınasına tab gətirməyə bilər



**Kaliforniya Universitetinin alimi Sangeta Abdu yeni bir araşdırmasında şiddətli günəş fırtınasının aylarla davam edə biləcəyini qeyd edib.**

”Şərq” ”Sabah.com”a istinadən xəbər verir ki, bu durum internetin çöküşünə səbəb ola bilər.

S.Abdu araşdırması ilə əlaqədar bu sözləri söyləyib: ”Pandemiya zamanı dünyanın nə qədər hazırlıqsız olduğunu gördük. Bu məni çox düşündürür. Eyni şeyi internetdə də yaşaya bilərik. Çünki internet infrastrukturu günəş aktivliyinə tab gətirməyə bilər.

Mütəxəssislər Abdunun müəyyən məqamlarda haqlı olduğunu söyləyirlər. Yer kürəsinə birbaşa təsir edən günəş fırtınasının 10 il ərzində 1.6 faiz ilə 12 faiz arasında olduğu təxmin edilir.

**Yeganə**



# Melih Damla ilə evləndi

## Toy mərasiminə məşhurlar qatılıb

**”Fənərbaxça Beko”nun kapitanı Melih Mahmudoğlu bir vaxt Fənərbaxça Qadın Voleybol klubunda oynayan Damla Çakıroğlu ilə evlənib.**

”Şərq” türk mediasına istinadən xəbər verir ki, cütlüyün toyunda fənərbaxçalı məşhur simalar qonaq olublar. Nikah şahidləri ”Fənərbaxça” klubunun başqanı Ali Koç, Sırp Koç, Zelijko Obradoviç, qapıçı Volkan Demirəl, voleybolçu Eda Erdem Dündar olub. Toya dünyaca məşhur basketbolçu Cedi Osman da qatılıb.

*Qeyd edək ki, cütlüyün nişan üzüklərini də V.Demirəl taxıb.*

**Samirə**